Türk cəmiyyətinin uşaqlara münasibəti, ümumiyyətlə, müsbətdir. Avropa miflərində mövcud olan Tanrıların övladlarını özünə rəqib görməsi, onları öldürmək istəməsi türk ənənəsində yoxdur. Əksinə, türklərdə uşaq cəmiyyətin mərkəzində dayanan sosial varlıq kimi çıxış edir. Hətta ailələr övladları sayəsində nüfuz qazanırlar. Bayındır xanın dilindən deyilən “oğlu-qızı olmayanı qara çadıra qoyun, qara keçə altına qoyun, qabağına qara qoyun qovurması nı gətirin, yeyərsə, yesin, yoxsa qalxıb getsin” deyiminin əsası budur.

“Dədə Qorqud” oğuznamələrində ata-ananın övladlarını təhlükədən uzaq tutmağa çalışdıqları və səhvlərinə baxmayaraq həmişə onlara arxa durduqları aydın görünür.

Qanlı qoca oğlu Qanturalının Selcan xatunla evlənmək üçün aslan, öküz və dəvə ilə döyüşmək istəyinə qarşı çıxması, Salur Qazanın əsir düşdüyü boyda oğlu Uruz onu xilas etmək istəyəndə Burla xatunun Uruzu bu yoldan döndərməyə çalışması, Dəli Domrulun arvadına “gözün kimə tutsa, ürəyin kimi sevsə, sən ona var. İki oğlanı yetim qoyma” deməsi, atasının sözündən çıxaraq savaşa girən və düşmənə əsir düşən Uruzun bu səhvinə baxmayaraq atası tərəfindən

əsirlikdən xilas edilməsi kimi nümunələrdən ailələrin övladlarına nə qədər qayğı göstərdiklərini və onları qoruduğunu görürük.

Təpəgöz əzilən xalqın cəmiyyətə olan düşmənçiliyini əks etdirən obrazdır. Bu obraz hələ doğulmadan qəribə bir əşyanın içində olarkən Oğuz bəyləri tərəfindən təpiklənir, daşlanır və əzilir. Təpəgöz doğulanda oğuz bəyləri tərəfindən zorakılığa məruz qaldığı üçün həmişə şüuraltı olaraq şiddətə meylli olur. Tədqiqatçı Korkmaz Təpəgözün şiddət göstərməsinin səbəbini açıqlayaraq, "Təpəgöz payını ala bilmədiyi cəmiyyətdən qisas almağa çalışır" (4, 263). Professor Kamran Əliyev Təpəgözün atasının çoban olmağını əsas gətirərək onu reallıqla mifin müştərək təcəssümü kimi təqdim edir (1, 103). Təpəgözün öz xislətində çobanlıq atributlarını qoruyub saxladığını tədqiqatçı Xaliq Koroğlu da vurğulamışdır (3, 145). Təpəgözün cəmiyyətdən ala bilmədiyi pay, əslində, sevgidir. Bu səbəbdən ailədən və mühitdən sevgi payını ala bilməyən uşaqların meyli həmişə nifrətə, şiddətə yönəlir və Təpəgöz də bunun ən bariz nümunəsidir.

Təpəgözlə bağlı boyda ailəyə və cəmiyyətə uşağa şiddət tətbiq edilməməsi, uşağın kənarda qalmaması mesajı verilir. Ailənin və cəmiyyətin gələcəyi olan övlad əzilirsə, sabah öz ailəsinə, cəmiyyətə də zülm edəcək. Bunun nəticəsidir ki, məzlum uşaq sonradan övladlığa götürülsə belə, çox vaxt islah oluna bilmir və Təpəgöz sonradan Oğuzun başına bəla olduğu kimi, əzilən uşaq da cəmiyyətə bəla olur, çox vaxt övladlığa götürülsə də, onu islah etmək mümkün deyil.

“Dədə Qorqud” boylarında uşaq həmişə gördüyü faydalı işlərə görə mükafatlandırılır. Bu mükafatlar həm də uşaq üçün həvəsləndirici stimul olur. Cəmiyyət tərəfindən verilən mükafatlar uşağın şəxsiyyətinin inkişafına müsbət təsir edir.

“Dədə Qorqud” boylarında uşağa verilən ilk mükafat *addır*. Türk cəmiyyətində qəhrəmanlığa doğru ilk addımda uşağa əvvəlcə ad verilir, sonra ona uyğun müxtəlif gücləndiricilər (bəylik, taxt, digər qiymətli hədiyyələr) verilir ki, bu da müsbət hal kimi qiymətləndirilir.

Dirsə xanın oğlu Buğac igidlik göstərib ad alandan sonra Dirsə xan oğluna bəylik, taxt, yurd verir.

“Dədə Qorqud”da kənarlaşdırılan və cəzalandırılan uşaq Təpəgöz olur. Bununla belə, Təpəgözün təcrid edilməsi və cəzalandırılması Oğuz cəmiyyəti üçün getdikcə daha çox problemə çevrilir. Bu nümunədə uşaq tərbiyəsində cəzadan çox mükafatın daha təsirli bir üsul olduğu açıq şəkildə görünür.

Türk cəmiyyətinin fərdlərinə aşılamaq istədiyi keyfiyyətlərdən, bəlkə də, ən mühümü dədə-baba nəslini davam etdirmək, cəmiyyəti sonsuza qədər yaşatmaq arzusudur. Dədə Qorqud”da “ata adını daşımayan kobud oğul, ata belindən enincə enməsə yaxşıdır, ana bətninə düşüncə dünyaya gəlməsə yaxşıdır” ifadəsi türkün bu ənənəsinin göstəricisidir.

“Dədə Qorqud” qəhrəmanları ilk növbədə atalarının (əcdadlarının) adını uca tutmağa, onun nüfuzuna xələl gətirməməyə çalışırlar. Qəhrəmanlar həmişə ata adını uca tutmağı özlərinə borc bilir və onun şərəfini öz şərəfi kimi ucaltmaq arzusunda olurlar. Məsələn, Əmran atası Bəkilin geyimini geyib atını minərək atasının yerinə meydanda düşmənlə vuruşur.

Boylarda ailəyə, cəmiyyətə sonsuz bağlılıq olsa da, bəzən qəhrəmanlar valideynlərinin sözünə qulaq asmır, ailələrinin razılığı olmadığı halda, evlərini, yurdlarını tərk edirlər. Lakin qəhrəmanlar ailələrinin narazılığına baxmayaraq, evdən çıxarkən valideynlərinin əllərini öpmədən, onların xeyir-duasını almadan yola çıxmırlar.

“Dədə Qorqud” boylarında qəhrəmanların ailəyə və cəmiyyətə sədaqətini aşağıdakı ifadələrdən də anlamaq mümkündür: Səgrək böyük qardaşı Əgrəyi əsirlikdən xilas etmədən evlənmək

istəmir. Eləcə də, Uruz ailəsinin başsız qalmaması üçün özünü xilas etməyə gələn atası Qazana "atanın oğul üçün ölməsi ayıb olar", – deyir...

Boylarda uşaq dünya ilə anası vasitəsilə tanış olur və ilk olaraq bu dünyada anasını tanıyır. Ana uşaq üçün əvəzolunmaz mövqedədir. Çünki ana övladı dünyaya gələn kimi onu bağrına basır və övladının ilk güvən yeri də anası olur.

Ana sağ olduğu müddətdə övladına həyat verən varlıqdır. Əslində, "Dirsə xan oğlu Buğac boyu"nda Xızırın da Buğacın yarasının yeganə dərmanının "dağ çiçəyi" və "ana südü" olduğunu söyləməsi ananın övladına bir ömür can verən, onu qucaqlayan, bağrına basan qoruyucu olduğunun sübutudur.

Türk cəmiyyətində oğlan övlad igidlik göstərmədən ad ala bilməzdi. Bu səbəbdən o dövrün uşaqlarının şüuraltında xarakter kimi formalaşmaq istəyi, özünütəsdiq arzusu indiki uşaqlardan daha çoxdur. Bu baxımdan uşaq cəsarətini toplamalı və qəhrəmanlıq dövrünün başlanğıcında "mən bacararam" (özünəinam) hissini aşılamalıdır. "Dədə Qorqud" boylarının qəhrəmanların, demək olar ki, hamısında bu xüsusiyyət var. Bəkil yaralı olanda Əmranın kafirlərin hücumuna qarşı oğuz bəylərindən kömək istəməməsi atasının yerinə düşmənə qarşı təkbaşına vuruşması, Basatın bütün cəsarətilə təkbaşına Təpəgözü məğlub etməsi də qəhrəmanın özünütəsdiq arzusundan irəli gəlir.

Dastan qəhrəmanları hər zaman ağlın və gücün vəhdəti ilə öz qəhrəmanlıqlarına nail olurlar. "Təpəgöz" boyunda Basat, dəmiri odda qızdırmaq, Təpəgözün gözünə batırmaq və qoyun dərisi geyinərək mağaradan xilas olmaq kimi ağıllı hərəkətləri ilə Təpəgözü məğlub edir. Bütün bunlar Basatın ağıllı tədbirləri və gücü sayəsində mümkün olur. Bundan əlavə, yumruğunun buğaya dayaq olduğunu anlayan Buğaç xanın yumruğunu buğanın alnından çəkərək buğanı yerə yıxması da fiziki gücün ağılla birləşməsinə gözəl nümunədir.

Son olaraq qeyd edə bilərik ki, əgər ailə və cəmiyyət öz dəyərlərinə sadiq fərdlər yetişdirmək istəyirsə, ilk növbədə, uşaqlara müəyyən yaşdan sonra böyüklər kimi yanaşmalıdır. Uşağı böyük kimi görmək, ona anlayış göstərmək yetkinlik və özünütəsdiq dövrünə sürətli keçiddə ona kömək edəcək. Böyüklər kimi davranma prosesi uşağa cəmiyyətdə müsbət kimlik qazandıracaq və onu cəmiyyət üçün faydalı bir fərd halına gətirəcəkdir.

Ailə və cəmiyyət öz normalarını qəbul etdirmək üçün uşaqlara qarşı heç vaxt zorakılıq tətbiq etməməlidir. Çünki hər bir uşağın həm də öz daxili inkişaf dinamikası mövcuddur və tərbiyə prosesində bu inkişaf dinamikası mütləq nəzərə alınmalıdır. Təpəgözlə bağlı boyda da gördüyümüz kimi, zorakılığa məruz qalan uşağın cəmiyyətə və mühitə reaksiyası ancaq şiddət olacaqdır. Ona görə də, doğumdan ölümə qədər davam edən bir proses olan tərbiyə prosesində ailə və cəmiyyət zorakılıq tətbiq etmədən uşağı bütün qüsurları ilə qucaqlayıb bağrına basmalıdır, ona sevgi və qayğısını hər daim hiss etdirməlidir.

ƏDƏBİYYAT

1. Əliyev K. Açıq kitab – "Dədə Qorqud". Bakı, Elm və təhsil, 2015, 116 s.
2. "Kitabi-Dədə Qorqud". Bakı, Öndər, 2004, 376 s.
3. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı, Yurd, 1999, 244 s.
4. Korkmaz R. Fenomenolojjik açıdan Tepegöz yorumu.Uluslararası Dede Korkut Bilge şöleni. Ankara Atatürk Kültür Merkezi Başkanlığı Yayınları. 2000, 259-270 s.

AZƏRBAYCAN MULTIKULTURALIZMININ BANISI ULU ONDƏR HEYDƏR ƏLIYEV

Ibrahimova Gulnara Akif gızı

Shirvan State College of Economics and Humanities,Head of Department No. 3

Teacher of Russian language and literatüre

Xülasə

Açar sözlər: Ulu Öndər, multikulturalizm, hakimiyyət

Azərbaycan multikultrualizminin banisi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sovet İttifaqının dağılma ərəfəsində - 80-ci illərin sonları və 90-cı illərin əvvəllərində müxtəlif qruplar üçün "milliyətçilik" anlayışı birliyə çağırışın yeganə kateqoriyası idi. Bu siyasi ideologiya Avropa dövlətlərindən fərqli olaraq keçmiş sovet ölkələrində və eləcə də regionumuzda dramatik toqquşmaların meydana gəlməsinə səbəb oldu. Bu illər ərəfəsində Azərbaycan vətəndaş müharibəsinin baş verməsi astanasına gəlib çatdı. Məhz bu ərəfədə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə yenidən döndü. Bu dönüşdən sonra Azərbaycanın həm daxili həm də xarici siyasətində köklü dəyişiklər özünü dərhal götərməyə başladı. Heydər Əliyev siyasətinin əsasını multikultural, tolerant və humanist dəyərlərin ana xətt təşkil edir. İnsan hüquqlarının ali dəyər kimi hesab olunduğu Heydər Əliyev siyasəti Azərbaycanı nəyinki vətəndaş müharibəsindən xilas etdi, hətta Azərbaycanın multikultural dəyərlərini bir model kimi formalaşdırdı. 1989-cu ildə Sumqayıt hadisəsinin baş verməsi vətəndaşlıq müharibəsinin ilkin səbəblərindən oldu. Sovet dövləti dağılmağa başladığı andan Azərbaycan ərazisində Ləzgistan və Talış Muğan respublikalarının yaradılması təşəbbüsünün irəli sürülüb o istiqamətdə siyasi işlərin aparılması artıq Azərbaycan Respublikasına bir possional şəxsin başçılıq etməsinin zəruriliyi yarandı. Bu vacibliyi sezən Azərbaycan ziyalılar cəmiyyətinin imza toplantısı ilə Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldi.Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etdi. Və 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Azərbaycan Respublikası qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanındı. Beləliklə də, yeni müstəqillik əldə etmiş dövlətin dünya təşkilatları il siyasi-iqtisadi əməkdaşlığın edilməsinə zərurət yarandı. Və eyni zamanda Heydər Əliyevin güclü siyasətinin nəticəsi olaraq müxtəlif etnik qrupa daxil olan milli qrupların hüquq-bərabərliyini qorumaq və mədəni müxtəlifliklərin inkişafına şəraitin yaradılması əsas şərtlərdən biri oldu.Sözdə əməlin edilməsi və hüquqların qorunması sənədlə sübutun verməli və daxili çəkişmənin qarşıs alınmalı idi. Eyni zamanda dövlətin din münasibətlərin nizama salmaq, dövlətin xarici siyasətin düzəlmət və yeni yaranmış bir dövlətin iqtisadi siyasətində gücləndirmək və həyata keçirtmək üçün bir sıra xarici təşkilatlara üzv olmanın vacibliyin görürdü. Bunun üçün də Heydər Əliyev 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Daha sonra Ulu Öndər Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, "respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci

növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir". Həm yeni yaranmış müstəqil dövlət özünəməxsus prinsip və xüsusiyyətlərlə fərqlənmək, həm də müxtəlif istiqamətli daxili və xarici siyasəti həyata keçirtmək üçün. xalqın ümumi rəyi ilə yaradılmış və qəbul olunmuş Konstitusiya əsasında onun tam bir varlıq kimi yaşamasına, fəaliyyətinə, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində təmsil etdiyi vətəndaşların maddi və mənəvi tələbatının fasiləsiz təmin edilməsinə, eyni zamanda dövlətin etnik birliyini təşkil edən müxtəlif etnik birliklərin hüquq və bərabərliyini qanun əsasında qorumaq üçün 1995-ci il noyabrın 12-də qəbul edildi. Konistitutsiyanın bəzi maddələri insan hüquq və azadlıqlarının qorunması ilə bağlıdır. Bu qanunlar da 1948-ci il dekabrın 10 da Birləşmiş Millətlər təşkilatının qəbul etdiyi “insan və vətəndaşların hüquq və azadlıqlar haqqında bəyannaməsinin”qanunları ilə uyğunluq təşkil edir.Həmçinin Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında quruması kimi hüquqi qanunları əks etdirmişdir. Bütün bu hüquq və qanunların, maddə və bəndlərin hər birinin özünün həyata keçirtdiyi funksiyası vardır ki, onlardan biri də xarici siyasətin həyata keçirilməsidir. Bütün bu siyahı Ulu Öndər Heydən Əliyevin daxili və xarici siyasətinin nəticəsi olaraq əldə edilmişdir. Multikulturalizm və tolerantlığın inkişafı uğrunda Ulu Öndərin hakimiyyəti illərində Azərbaycanda yeni məscidlərin tikilməsi ziyarətgah və dini məbədlər əsaslı şəkildə təmir-bərpa edilməsi, abadlaşdırılması əsas istiqamətlərdən biri idi. Çoxmillətli dövlət olan Azərbaycanda müstəqillikdən öncə 17 məscidin mövcud olması tolerantlığın ilkin müxtəliflikliyə aid olmasını bir daha sübuta yetirirdi.Müstəqillikdən sonra onların sayı 1236-ya Ulu Öndər Heydər Əliyevin sayəsində çatdırıldı. Milli-mənəvi dəyərlərimizin xüsusi rolunun olduğunu Heydər Əliyev 1997-ci ildə Bibiheybət məscidinin bərpasına başlanması mərasimindəki çıxışında vurğulamışdır: "Son illər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, qorunub saxlanmasında, Azərbaycanın başına gələn bəlaların aradan götürülməsində, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün apardığımız işlərdə, bütün başqa işlərdə bizim milli-mənəvi dəyərlərimiz - Azərbaycan xalqının milli-mənəvi dəyərləri, Azərbaycan xalqının mənsub olduğu islam dininin mənəvi dəyərləri bizim üçün həmişə dayaq və ilham mənbəyi olmuş, bizə həmişə güc vermişdir”. Azərbaycanın gələcək strategiyasının inkişaf etdirilməsində mənəvi mənbələrdən yararlanmağın xüsusi önəminin olduğunu və bu işdə islam dininin də əhəmiyyətli rolunun vacib olduğunu Ulu Öndər xüsusi qeyd etmişdir.Məhz ona görədə çoxmillətli dövlətin müxtəlif dini görüşlərə malik olan etnik birliklərin dini nümayəndələri ilə Ümummilli Lider tez-tez görüşlər keçirir, onların fikirlərinə ciddi şəkildə önəm verir, müxtəlif dini bayram və matəm mərasimlərində məscidlərə gedir, dindar insanlar qarşısında çıxışlar edərdi ki, bu da multikultural görüşün inkişafını və Azərbaycan multikulturalizm modelinin əsasının formalaşmasına təkan verirdi Təzəpir məscidində keçirilən bayram tədbirində iştirak edən Ulu Öndər : "Bizim bu ədalətli mübarizəmizdə, torpaqlarımızın müdafiəsində Allah bizə həmişə yardımçı olacaqdır. Ulu peyğəmbərimiz Məhəmməd əleyhissalamın qoyduğu yol, Qurani-Kərimin göstərişləri bizi qələbəyə aparacaq, xalqımızı birləşdirəcək və biz düşmənləri məğlub edəcəyik”. Ümummilli Lider Heydər Əliyev islam dininin mənsublarına göstərdiyi qayğı və diqqəti ölkəmizdə yaşayan digər dinlərin mənsublarından da əsirgəməyərək öz düşüncələri və əməlləri ilə ölkəmizdə tolerant mühiti formalaşdırıb,inkişafına təkan verib ki, bu da bütün vətəndaşlar üçün örnək rolunu oynayaraq mədəni müxtəlifliyin inkişafını təmin edib.

LANGUAGE INFORMATION
DİL BİLGİLERİ

Həmzəyeva Zəhra

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ü. Hacıbəyov-68)

ÖZET

Makale, dilin toplumdaki rolü, temel görevleri ve işlevleri, ortak Türk alfabesinin ortaya çıkış tarihi, Azerbaycan diline yönelik yasaklar ve bunların tarihî-siyasi nedenleri üzerine bir inceleme sunmaktadır. Aynı zamanda, bazı Rusça kelimelerin Azerbaycan Türkçesindeki karşılıkları verilerek ana dilimizin yabancı etkilerden korunması konusuna değinilmiştir. Dilin yalnızca bir iletişim aracı olmadığı, aynı zamanda millî kimlik ve kültürün oluşmasında önemli bir faktör olduğu vurgulanmıştır.

Makale, Azerbaycan dilinin farklı dönemlerde gelişimi ve korunması uğruna mücadele eden aydınlar – Mirze Fetali Ahundov, Hasan Bey Zerdabi, Ali Bey Hüseyinzade, Neriman Nerimanov, Firidun Bey Köçerli, Üzeyir Hacıbeyli ve Mehmet Emin Resulzade'nin faaliyetlerini ele almaktadır.

Bunun yanı sıra, makalede Azerbaycan'ın tarih boyunca yürüttüğü dil politikası ve bu politikanın milletin oluşumundaki rolü analiz edilmiştir. Azerbaycan Türkçesi yalnızca ülkemizde değil, aynı zamanda Türk dünyasının birleştirici unsurlarından biri olarak değerlendirilmiştir. Bu bağlamda, ortak Türk alfabesinin oluşturulması ve tarihî önemi hakkında da bilgi verilmiştir.

Dilimizin korunması ve gelişimi yönünde atılan adımlarla birlikte, Sovyet ve Çarlık Rusyası dönemlerinde Azerbaycan Türkçesine uygulanan kısıtlamalar ve bu kısıtlamalara karşı halkımızın gösterdiği direniş de makalede ele alınmıştır. Ayrıca, çağdaş dünyada Azerbaycan dilinin rolü, küreselleşme sürecinde karşılaştığı zorluklar ve gelecekteki gelişim perspektifleri de değerlendirilmiştir.

Ana dilimizin önemini vurgulayan tarihî şahsiyetlerin görüşleri ve dilin kültürümüzün ayrılmaz bir parçası olduğu hakkındaki çeşitli alıntılar, okuyucuya daha geniş bir bakış açısı kazandırmak amacıyla makaleye eklenmiştir. Sonuç olarak, makalede Azerbaycan Türkçesinin millî kimliğimizin korunmasındaki temel unsurlardan biri olduğu ve gelecek nesillere aktarılmasının gerekliliği bir kez daha vurgulanmıştır.

Anahtar kelimeler: dil, toplum, kültür, aidiyet, fikir.

ABSTRACT

The article explores the role of language in society, its primary functions and responsibilities, the history of the emergence of the common Turkic alphabet, the prohibitions imposed on the Azerbaijani language, and their historical-political reasons. Additionally, the article highlights the equivalents of certain Russian words in Azerbaijani, emphasizing the importance of protecting the native language from foreign influences. It is underlined that language is not only a means of communication but also a crucial factor in shaping national identity and culture.

The article sheds light on the efforts of Azerbaijani intellectuals, such as Mirza Fatali Akhundov, Hasan bey Zardabi, Ali bey Huseynzade, Nariman Narimanov, Firidun bey Kocharli, Uzeyir Hajibeyov, and Mohammad Amin Rasulzade, who fought for the development and preservation of the Azerbaijani language throughout different historical periods.

Furthermore, the study analyzes Azerbaijan's language policy throughout history and its role in shaping the national identity. Azerbaijani is not only the official language of the country but also considered a unifying factor among Turkic nations. In this context, the creation of the common Turkic alphabet and its historical significance are also discussed.

Along with the steps taken to preserve and develop the Azerbaijani language, the article also examines the restrictions imposed on it during the Soviet and Tsarist Russian periods and the resistance demonstrated by the Azerbaijani people against these limitations. Moreover, the role of the Azerbaijani language in the modern era, the challenges it faces in the context of globalization, and its future development prospects are evaluated.

To provide a broader perspective to readers, the article incorporates quotes from historical figures emphasizing the importance of the native language and its inseparable connection to cultural heritage. Ultimately, the article reaffirms that the Azerbaijani language is a fundamental element in preserving national identity and must be safeguarded and passed down to future generations.

Keywords: language, society, culture, identity, idea.

Məqalədə dilin cəmiyyətdəki rolu, onun əsas vəzifə və funksiyaları, ortaq türk əlifbasının yaranma tarixi, Azərbaycan dilinə qarşı qoyulmuş qadağalar və onların tarixi-siyasi səbəbləri araşdırılmışdır. Eyni zamanda, bəzi rus sözlərinin Azərbaycan dilində qarşılıqları təqdim edilərək, ana dilimizin yad təsirlərdən qorunması məsələsinə toxunulmuşdur. Dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyi və mədəniyyəti formalaşdıran mühüm faktor olduğu vurğulanmışdır. Məqalədə müxtəlif dövrlərdə Azərbaycan dilinin inkişafı və qorunması uğrunda mübarizə aparmış maarifpərvər ziyalıların – Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Nəriman Nərimanov, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyov və Məhəmməd Əmin Rəsulzadənin fəaliyyəti işıqlandırılmışdır.

Bundan əlavə, məqalədə Azərbaycanın tarixi ərzində dil siyasəti və onun millətin formalaşmasında oynadığı rol təhlil olunmuşdur. Azərbaycan dili yalnız ölkəmizdə deyil, həm də türk dünyasının birləşdirici amillərindən biri kimi qiymətləndirilmişdir. Bu kontekstdə ortaq türk əlifbasının yaradılması və onun tarixi əhəmiyyəti haqqında da məlumat verilmişdir.

Dilimizin qorunması və inkişafı istiqamətində atılan addımlarla yanaşı, sovet və çar Rusiyası dövründə Azərbaycan dilinə qarşı tətbiq edilən məhdudiyyətlər və bu məhdudiyyətlərə qarşı xalqımızın göstərdiyi müqavimət də məqalədə öz əksini tapmışdır. Bütün bunlarla yanaşı, məqalədə Azərbaycan dilinin müasir dövrdə rolu, onun qloballaşma şəraitində qarşılaşdığı çağırışlar və gələcək inkişaf perspektivləri də nəzərdən keçirilmişdir.[2, 84]

Ana dilimizin əhəmiyyətini vurğulayan tarixi şəxsiyyətlərin fikirləri və dilin mədəniyyətimizin ayrılmaz hissəsi olması barədə müxtəlif sitatlar məqaləyə əlavə edilərək, oxucuya daha geniş təsəvvür yaratmaq məqsədi güdülmüşdür. Nəticə etibarilə, məqalədə Azərbaycan dilinin milli kimliyimizin qorunmasında əsas vasitə olduğu və onun gələcək nəsillərə ötürülməsinin vacibliyi bir daha vurğulanmışdır.

Dil insanların fikirlərini ifadə etməsi, qarşılıqlı anlaşması və cəmiyyətin mədəni inkişafında mühüm rol oynayır. O, yalnız ünsiyyət vasitəsi deyil, həm də təfəkkürün formalaşmasında və ideyaların ötürülməsində əsas faktordur. Dil olmadan cəmiyyəti təsəvvür etmək mümkün deyil.

H.Z.Tağıyev “Həyat” qəzetində bu barədə yazırdı: “Bir xalq üçün iki önəmli məsələ var: birincisi, dinin qorunması, ikincisi isə dildir.”

Bu gün Azərbaycan və Türkiyə Respublikaları dilin qorunması və inkişafı sahəsində mühüm addımlar atmışdır. Türk dövlətlərinin ən böyük təşəbbüslərindən biri ortaq türk əlifbasının yaradılması olmuşdur. Sovet Sosialist Respublikaları İttifaqı dağıldıqdan sonra, 1991-ci ilin noyabrında İstanbulda keçirilən Beynəlxalq Elmi Simpoziumda türk dilləri üçün vahid əlifbanın hazırlanmasına dair qərar qəbul edilmişdir. 34 hərfdən ibarət olan bu əlifbaya sağır “n” və sağır “nun” kimi yeni hərflər əlavə olunmuşdur. Azərbaycanın qərb bölgəsində bu hərflərin qədimdən istifadə edildiyi müşahidə olunur. Lakin zaman keçdikcə onların istifadəsi azalmışdır. [3, 4]

Azərbaycan dili tarix boyu müxtəlif məhdudiyyətlərə məruz qalmışdır. 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsi ilə Azərbaycan torpaqları Rusiya və İran arasında bölüşdürülmüş, cənubi Azərbaycanda dilimiz qadağan edilmişdir. Azərbaycan dilində danışmaq, şeir yazmaq, dərs keçmək və qəzet çap etmək qadağan olunmuşdur. Bu amansız siyasət 1920-ci ilin 28 aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra da davam etmişdir. Məqsəd milli kimliyimizi unutdurmaq, xalqı əqidəsindən döndərmək və assimilyasiya siyasəti həyata keçirmək idi. Lakin Azərbaycan xalqı öz dilini, milli dəyərlərini və mədəniyyətini qoruyub saxlamışdır.

Ana dilimizi qorumaq və zənginləşdirmək hər birimizin borcudur. Biz dilimizi vulqarizmlərdən və varvarizmlərdən təmizləməliyik. Maarifpərvər ziyalılarımız – Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Nəriman Nərimanov, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyov və başqaları ana dilimizin saflığını qorumaq uğrunda mübarizə aparmışlar. Məhəmməd Əmin Rəsulzadə “Açıq Söz” qəzetində çap etdirdiyi “İslam dini və ana dili” məqaləsində duaların ana dilində oxunmasının vacibliyini vurğulamışdır: “Dilәkləri öz dilində diləmək, istədiklərini öz dilində istəmək və onların mənasını anlamaq insan üçün daha məqbuldur.” [10, 31]

Mirzə Fətəli Axundov “millət” ifadəsini ilk dəfə işlətmişdir. Həsən bəy Zərdabi 1875-ci ildə “Əkinçi” qəzetini təsis edərək Azərbaycan mətbuatının əsasını qoymuşdur. Lakin 1877-ci ildə Çar Rusiyasının təzyiqi ilə qəzet bağlanmışdır. Dilimizdə əcnəbi sözlərin istifadəsini azaltmaq üçün onların Azərbaycan dilində olan qarşılıqlarından istifadə etməliyik. Məsələn, “uje” əvəzinə “artıq”, “immeni” əvəzinə “məhz”, “koridor” əvəzinə “dəhliz”, “prosto” əvəzinə “sadəcə”, “ruçka” əvəzinə “qələm”, “sumka” əvəzinə “çanta” işlədilməlidir.

Dil tarixi dövrlər boyunca qorunub saxlanmış və inkişaf etdirilmişdir. Şah İsmayıl Xətai dövründən bu günə qədər müxtəlif tədbirlər həyata keçirilmişdir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda ölkədəki mürəkkəb siyasi vəziyyətə baxmayaraq, Azərbaycan dili dövlət dili elan edilmişdir. Çar Rusiyası və Sovet Sosialist Respublikaları İttifaqı dövründə dilimizə qadağalar qoyulmuş, əlifbamız dəfələrlə dəyişdirilmişdir. Lakin xalqımız dilini qoruyub saxlamışdır.

Dünyada ən çox azərbaycanlı yaşayan ölkə İrandır. Orada 30 milyondan çox soydaşımız yaşayır. Tarix boyu Azərbaycan dili bizi birləşdirən əsas ünsiyyət vasitəsi olmuşdur. Azərbaycan dili təkcə bizim deyil, həm də bütün türk xalqlarının birləşdirici atributudur. Bu dil, eyni zamanda, təhsil, tərbiyə və mədəniyyət vasitəsidir. Məhəmməd peyğəmbər demişdir: “Dil insanı dəyərləndirmək üçün vasitədir.” [2, 6]

Azərbaycan dili xalqımızın milli sərvətidir. Məqaləni Heydər Əliyevin sözləri ilə bitirmək istərdim: “Dilimiz çox zəngin və ahəngdar dildir, onun dərin tarixi kökləri vardır. Mən öz ana dilimi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm.”

Nəticə. Məqaləmin sonunda demək istəyirəm ki, dil bir millətin ən qiymətli sərvətlərindən biridir və onun qorunması milli kimliyin, mədəniyyətin və tarixən formalaşmış dəyərlərin yaşadılması baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycan dili əsrlər boyu müxtəlif çətinliklərə, qadağalara və təzyiqlərə baxmayaraq, öz varlığını qoruyub saxlaya bilmişdir. Tarix boyu Azərbaycan dilinin inkişafı və qorunması uğrunda maarifpərvər ziyalılarımız ciddi mübarizə aparmış, dilimizin saflığının qorunmasına və onun gələcək nəsillərə ötürülməsinə böyük töhfələr vermişlər.

Ortaq türk əlifbasının yaradılması və türk dünyasında dil birliyinin formalaşdırılması istiqamətində atılan addımlar bu sahədə mühüm nailiyyətlərdən biridir. Bununla yanaşı, Azərbaycan dili təkcə ölkəmizdə deyil, türk dünyasının birləşdirici elementi kimi də xüsusi əhəmiyyət daşıyır.

Müasir dövrdə qloballaşma proseslərinin təsiri altında dilimizin qarşılaşdığı çətinliklər və xarici dillərin təsiri məsələsi aktualdır. Dilimizin yad təsirlərdən qorunması və onun daha da zənginləşdirilməsi üçün milli şüurun gücləndirilməsi və dil siyasətinin daha effektiv həyata keçirilməsi vacibdir.

Bütün bu müzakirələr əsasında bir daha vurğulamaq olar ki, Azərbaycan dilinin qorunması və inkişafı bizim hər birimizin məsuliyyətidir. Gələcək nəsillərə saf və zəngin Azərbaycan dili miras qoymaq üçün həm fərdi, həm də ictimai səviyyədə səylərimizi əsirgəməməliyik. Ana dilimizə olan sevgi və qayğı onun varlığının və inkişafının əsas təminatçısıdır.

Açar sözlər: dil, cəmiyyət, mədəniyyət, doğmalıq, ideya.

Anahtar kelimeler: dil, toplum, kültür, aidiyet, fikir.

Keywords: language, society, culture, identity, idea.

İstifadə olunmuş ədəbiyyat

1.Azərbaycan mətbuat tarixi (1875–1920-ci illər).

2."Açıq söz" qəzeti, 4, s. 84.

3."Həyat" qəzeti, № 181, 1906.

4.Mirzə Fətəli Axundov. Əsərləri, Bakı, 1983.

5.Həsən bəy Zərdabi.Seçilmiş məqalələr, Bakı, 1981.

6.Məhəmməd Əmin Rəsulzadə. Dil və millət haqqında düşüncələr, Bakı, 1992.

7.Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 1983.

8.Üzeyir Hacıbəyov. "Ana dili və milli musiqi", Bakı, 1975.

9.Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1995.

10.Heydər Əliyev – "Azərbaycan dili bizim milli sərvətimizdir", çıxışlar və məqalələr toplusu, Bakı, 2001.

DIALECTS OF THE AZERBAIJAN LANGUAGE AND THEIR RESEARCH
AZERBAYCAN DİLİNİN LEHÇELERİ VE ARAŞTIRILMASI

Arzu Karimova

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ü. Hacıbəyov-68),
ORCİD:0000-0002-2662-6015

ÖZET

Makale, Azerbaycan dilinin lehçe ve ağızlarının tanımı, sınıflandırılması ve araştırma yönlerini kapsamına almaktadır. Lehçelerin fonetik, sözcüksel ve dilbilgisel özelliklerinin incelenmesi, dilbilimin önemli alanlarından biri olup, dilin tarihi gelişimi ve coğrafi yayılma alanı hakkında derin bir anlayış sağlar.

Azerbaycan dili, kuzey ve güney lehçe gruplarına ayrılmakla birlikte, dört ana lehçe bölgesine bölünmektedir: Batı, Kuzey, Güney ve Merkez lehçeleri. Her lehçe grubunun kendine özgü fonetik, sözcüksel ve dilbilgisel özellikleri bulunmaktadır ve bunlar, tarihî ve coğrafi koşulların etkisi altında şekillenmiştir. Makalede lehçelerin bu özellikleri geniş kapsamda ele alınmakta, ayrıca Kuba, Kazah, Lenkeran, Masallı, Bakü ve Şamahı lehçelerinin farklı yönlerine ışık tutulmaktadır.

Lehçelerin araştırılması, dilbilim açısından büyük önem taşımaktadır. Azerbaycan lehçelerinin incelenmesi yalnızca dilbilimsel araştırmalar açısından değil, aynı zamanda etnografik ve tarihî çalışmalar için de önemli bir kaynak niteliği taşımaktadır. Azerbaycan dilinin farklı lehçelerinin korunması ve geliştirilmesi, bunların yazılı ve sözlü edebiyatta yansıtılması, gelecek nesillere aktarılması kritik konular arasındadır. Ayrıca, lehçelerin modern teknolojiler aracılığıyla incelenmesi ve belgelenmesi, bu alanda yeni ufuklar açmaktadır.

Bu çalışmada lehçelerin korunmasının ve incelenmesinin, dilimizin egemenliği ve ulusal kimliğin korunması açısından taşıdığı önem vurgulanmıştır. Bunun yanı sıra, lehçelerin standart Azerbaycan diliyle karşılıklı etkileşimi ve modern dile olan etkileri de analiz edilmiştir. Böylece, makale hem dilbilim hem de sosyal ve kültürel bağlam açısından Azerbaycan lehçeleri araştırmalarına katkı sağlamaktadır.

Anahtar kelimeler: lehçe, sözcüksel, fonetik, dil, araştırma.

ABSTRACT

The article covers the definition, classification, and research directions of Azerbaijani dialects and vernaculars. The study of the phonetic, lexical, and grammatical features of dialects is one of the key areas of linguistics, providing a deep understanding of the historical development and geographical distribution of the language.

The Azerbaijani language is divided into northern and southern dialect groups, as well as four main dialect regions: Western, Northern, Southern, and Central dialects. Each dialect group has its own distinct phonetic, lexical, and grammatical features, which have been shaped by historical and geographical factors. This article extensively examines these characteristics, highlighting the distinctive aspects of the dialects of Quba, Gazakh, Lankaran, Masalli, Baku, and Shamakhi.

The study of dialects holds great importance in linguistics. The examination of Azerbaijani dialects serves as a crucial resource not only for linguistic research but also for ethnographic and historical studies. The preservation and development of the various Azerbaijani dialects, their reflection in written and oral literature, and their transmission to future generations are among the critical issues. Moreover, the study and documentation of dialects through modern technologies open new perspectives in this field.

This research emphasizes the importance of preserving and studying dialects in terms of maintaining linguistic sovereignty and national identity. Furthermore, it analyzes the interaction between dialects and standard Azerbaijani, as well as their influence on the modern language. Thus, the article contributes to Azerbaijani dialectology from both linguistic and socio-cultural perspectives.

Key words: dialect, lexical, phonetic, language, research.

Məqalə Azərbaycan dilinin dialekt və şivələrinin təsviri, təsnifatı və araşdırılma istiqamətlərini öz əhatə dairəsinə alır. Dialektlərin fonetik, leksik və qrammatik xüsusiyyətlərinin öyrənilməsi dilçiliyin mühüm sahələrindən biri olub, dilin tarixi inkişafı və coğrafi yayılma arealı barədə dərindən anlayış yaradır.

Azərbaycan dili öz növbəsində şimali və cənubi dialekt qruplarına ayrılmaqla yanaşı, dörd əsas dialekt zonasına bölünür: Qərb, Şimal, Cənub və Mərkəz dialektləri. Hər bir dialekt qrupunun özünəməxsus fonetik, leksik və qrammatik xüsusiyyətləri vardır ki, bunlar da tarixi və coğrafi şəraitin təsiri altında formalaşmışdır. Məqalədə dialektlərin bu xüsusiyyətləri geniş şəkildə araşdırılır, o cümlədən Quba, Qazax, Lənkəran, Masallı, Bakı və Şamaxı dialektlərinin fərqli cəhətlərinə işıq tutulur. [1, 33]

Dialektlərin araşdırılması dilçilik üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dialektlərinin tədqiqi yalnız linqvistik araşdırmalar baxımından deyil, həm də etnoqrafik və tarixi tədqiqatlar üçün mühüm mənbə rolunu oynayır. Azərbaycan dilinin müxtəlif dialektlərinin qorunması və inkişaf etdirilməsi, onların yazılı və şifahi ədəbiyyatda əks olunması, gələcək nəsillərə çatdırılması vacib məsələlərdən biridir. Dialektlərin müasir texnologiyalar vasitəsilə öyrənilməsi və sənədləşdirilməsi də bu sahədə yeni perspektivlər açır.

Bu araşdırmada dialektlərin qorunmasının və öyrənilməsinin dilimizin süverenliyi və milli identifikasiyanın mühafizəsi baxımından əhəmiyyəti vurğulanmışdır. Bununla yanaşı, dialektlərin standart Azərbaycan dili ilə qarşılıqlı təsiri və onların müasir dilə təsiri də təhlil edilmişdir. Beləliklə, məqalə həm dilçilik, həm də sosial və mədəni kontekst baxımından Azərbaycan dialektologiyasına töhfə verir.

Giriş. Azərbaycan dili türk dilləri ailəsinə daxil olub, tarixi inkişaf prosesində müxtəlif dillərin təsiri altında formalaşmışdır. Coğrafi baxımdan geniş ərazidə yayılması, tarixi proseslər və müxtəlif etnik qruplarla qarşılıqlı əlaqə nəticəsində Azərbaycan dilinin bir çox dialekt və şivələri meydana çıxmışdır. Bu dialektlərin öyrənilməsi həm dilçilik, həm də tarixi-etnoqrafik tədqiqatlar üçün əhəmiyyətlidir.

Dialektlərin tədqiqi dilin tarixi inkişafı, onun dəyişiklikləri və xalqın mədəni kimliyi haqqında məlumat verir. Azərbaycan dialektləri həm linqvistik, həm də sosial faktorlarla bağlı fərqlənir. Onların qorunması və sistemli şəkildə öyrənilməsi gələcəkdə dilimizin daha dərindən anlaşılmasına imkan yaradır. [4, 88]

Dialektlərin təsnifatı Azərbaycan dilinin dialektləri coğrafi bölgələrə görə dörd əsas qrupa ayrılır:

1.Qərb qrupu (Qazax, Tovuz, Gəncə, Şəmkir dialektləri)

2.Şimal qrupu (Quba, Xaçmaz, Qusar, Şabran dialektləri)

3.Cənub qrupu (Lənkəran, Masallı, Yardımlı, Astara dialektləri)

4.Mərkəz qrupu (Bakı, Şamaxı, Kürdəmir dialektləri)

Hər bir dialekt qrupu spesifik fonetik, leksik və qrammatik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər həmin bölgənin tarixi, coğrafi və sosial-iqtisadi inkişafı ilə sıx bağlıdır.

Fonetik xüsusiyyətlər. Dialektlərin fonetik quruluşu Azərbaycan dilinin müxtəlif bölgələrində fərqli cəhətləri ilə seçilir. Məsələn:

– Quba dialektində "q" səsi bəzən "x" kimi tələffüz edilir (məsələn, "qapı" əvəzinə "xapı").

– Şamaxı dialektində "a" səsi bəzi hallarda "e" kimi tələffüz edilir (məsələn, "sarı" əvəzinə "səri"). [3,51]

– Qazax dialektində "d" səsi "y" kimi tələffüz edilə bilər (məsələn, "dedi" əvəzinə "yedi").

Bu cür fonetik fərqlər Azərbaycan dilinin regional zənginliyini göstərir və xalq arasında danışıq dilinin müxtəlifliyini əks etdirir.

Leksik xüsusiyyətlər. Azərbaycan dialektləri arasında leksik fərqlər də mövcuddur. Müxtəlif bölgələrdə eyni anlayışı ifadə etmək üçün fərqli sözlər istifadə olunur:

–Qazax dialektində "qapı" sözü "darvaza" kimi işlənir.

–Masallı dialektində "uşaq" sözü "bala" kimi ifadə edilir.

–Lənkəran dialektində "su" sözü "suv" kimi səslənir. [2, 108]

Bu leksik fərqlər Azərbaycan dilinin zənginliyini artırır və regionlar arasında maraqlı dialoji müxtəliflik yaradır.

Qrammatik xüsusiyyətlər. Azərbaycan dilinin dialektləri qrammatik cəhətdən də fərqlənir. Məsələn:

–Şamaxı dialektində feli bağlamalar fərqli istifadə edilir. Standart Azərbaycan dilində "gedəcəyəm" kimi işlənən söz, Şamaxı dialektində "gedərəm" kimi səslənir.

–Cənub dialektlərində zaman formaları fərqli cür istifadə edilə bilər.

Bu qrammatik fərqlər Azərbaycan dilinin dialektlərinin tədqiqinin nə qədər əhəmiyyətli olduğunu göstərir.

Dialektlərin müasir dövrdə rolu və qorunması. Müasir dövrdə Azərbaycan dialektlərinin qorunması və inkişaf etdirilməsi mühüm məsələdir. Urbanizasiya, kütləvi informasiya vasitələri və qloballaşma nəticəsində dialektlərin istifadəsi azalmağa meyillidir. Lakin dialektlər milli-mədəni kimliyin mühüm bir hissəsi olduğundan onların qorunması və gələcək nəsillərə ötürülməsi vacibdir. [5, 23]

Dialektlərin qorunması üçün aşağıdakı tədbirlər həyata keçirilə bilər:

1.Dialektlərin lüğətlərinin və qrammatik qaydalarının tərtib edilməsi.

2.Dialektlərin yazılı və şifahi ədəbiyyatda daha çox istifadə edilməsi.

3.Təhsil və elmi tədqiqat sahələrində dialektlərin öyrənilməsinin təşviq edilməsi.

4.Dialektlərin audiovizual materiallar vasitəsilə sənədləşdirilməsi.

Nəticə. Yekunda onu qeyd etmək istərdim ki, Azərbaycan dilinin dialektləri onun tarixi və coğrafi çoxşaxəliliyini əks etdirir. Bu dialektlərin qorunması və öyrənilməsi dilimizin inkişafı üçün vacibdir. Dialektlərin müasir dövrdə də aktuallığını qoruyub saxlaması, onların araşdırılması və sənədləşdirilməsi Azərbaycan dilçiliyi üçün mühüm vəzifələrdən biridir.

Anahtar kelimeler: lehçe, sözcüksel, fonetik, dil, araştırma.

Key words: dialect, lexical, phonetic, language, research.

İstifadə olunan ədəbiyyat

1.Axundov F. A. Azərbaycan dialektləri və vurğuları. Bakı: Qarağac, 1984.

2.Məmmədova L. A. Azərbaycan dialektlərinin fonetik xüsusiyyətləri. Bakı: 2005.

3.Cəfərov G. Q. Azərbaycan dialektlərinin qrammatik quruluşu. Bakı: Azərnəşr, 2010.

4.Kərimov A. M. Azərbaycanda dialektoloji tədqiqatlar. Bakı: Azərnəşr, 2018.

5.Azərbaycan Milli Elmlər Akademiyası. Azərbaycan dilinin dialektologiyası.
Bakı: Elm və Təhsil, 2019.

6.İsmayılov T. Azərbaycan dialektləri və onların linqvistik xüsusiyyətləri.
Bakı: Nəşriyyat, 2021.

7.Məmmədli A. Azərbaycan dili: Dialekt və şivələr. Gəncə: Gəncə Kitab Mərkəzi, 2020.

8.Hacıyev Ə. Azərbaycan dilinin tarixi və dialektoloji inkişafı. Şamaxı: Şirvan
nəşriyyatı, 2017.

9.UNESCO Regional dialects and their preservation strategies. Paris: UNESCO
Publications, 2022.

10.Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan dilinin inkişaf
strategiyası və dialektlərin rolu. Bakı: Təhsil Nəşriyyatı, 2023.

INCLUSIVE EDUCATION

Arzu Ələsgər qızı Süleymanova

Teacher of the subject combination commission "Art and physical education" of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University

Abstract. The concept of inclusive education implies that education should be accessible and equal for all. This approach allows children with disabilities, special educational needs, or social difficulties to study alongside other students in mainstream education institutions. This article analyzes the main principles and ideas of inclusive education.

Keywords: Inclusive, education, student

İnklüziv təhsil anlayışı təhsilin hamı üçün əlçatan və bərabər olmasını nəzərdə tutur. Bu yanaşma əlilliyi, xüsusi təhsil ehtiyacları və ya sosial çətinlikləri olan uşaqların ümumi təhsil müəssisələrində digər şagirdlərlə birlikdə oxumasına imkan yaradır. BMT-nin Uşaq Hüquqları Konvensiyası və UNESCO-nun "Hamı üçün təhsil" strategiyası inklüziv təhsilin inkişaf etdirilməsini vacib hesab edir. İnklüziv təhsil aşağıdakı əsas prinsiplərə əsaslanır:

Bərabərlik: Hər bir uşağın keyfiyyətli təhsil alma hüququ var. Fərdi yanaşma: Şagirdlərin ehtiyaclarına uyğun tədris metodlarının tətbiqi. Əlçatanlıq: Məktəblərin fiziki və pedaqoji baxımdan bütün uşaqlar üçün uyğunlaşdırılması. Sosial inteqrasiya: Xüsusi ehtiyacı olan uşaqların cəmiyyətə tam inteqrasiyasının təmin edilməsi. Pedaqoji adaptasiya: Müəllimlərin inklüziv təhsil sahəsində hazırlanması və dəstəklənməsi. İnklüziv təhsil yalnız xüsusi ehtiyacları olan uşaqlar üçün deyil, bütün şagirdlər üçün faydalıdır:

-Şagirdlər arasında qarşılıqlı anlaşmanı və empatiyanı artırır.

-Sosial inteqrasiyanı və icma birliyini gücləndirir.

-Fərqli öyrənmə tərzlərinə uyğun metodların tətbiqinə imkan yaradır.

-Müəllimlərin daha çevik və adaptiv pedaqoji bacarıqlarını inkişaf etdirir.

İnklüziv təhsildə fərqli bacarıq və ehtiyaclara malik uşaqların uğurla öyrənməsini təmin etmək üçün bir sıra xüsusi metodlar tətbiq olunur.Bu metodların tətbiqi zamanı şagirdin öyrənmə tərzi, yaşı və maraq dairəsi mütləq nəzərə alınmalıdır. Eyni zamanda metodlar uşağın sosial və akademik inkişafını dəstəkləməyə yönəldilməlidir.Ən əsası isə hər bir şagirdə fərdi yanaşma olmalıdır. Bunun üçün müxtəlif alətlərin tətbiqi zəruridir:şəkillər,qrafiklər,videolar,audio materiallar və s. Ölkəmizdə inklüziv təhsilin tam tətbiqi bir sıra çətinliklərlə üzləşir: 1)Müəllimlərin yetərli hazırlığının olmaması. 2)Fiziki mühitin (məsələn, panduslar, xüsusi sinif otaqları) uyğunlaşdırılmaması. 3)Maliyyə və resurs çatışmazlığı. 4)Köməkçi müəllimlərin çatışmazlığı və ya ümumiyyətlə olmaması 5)Cəmiyyətin və valideynlərin bu yanaşmaya qarşı olan bəzi stereotipləri. 6)Cəmiyyətin yetərincə maarifləndirilməməsi 7)İnklüziv təhsil sahəsində təcrübənin olmaması 8)İnklüziv təhsil tələblərinə cavab verən məktəbəqədər müəssisələrinin olmaması 9)Ümumiyyətlə inklüziv təhsilin müxtəlif səbəblərdən kütləvi şəkildə reallaşdırılmaması İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün aşağıdakı addımlar atılmalıdır: Müəllimlərin və pedaqoji heyətin inklüziv təhsil sahəsində təlimlərə cəlb edilməsi.Lakin təcrübə göstərir ki, yalnız təlim kifayət etmir. Bu sahədə tam ixtisaslı kadrlara ehtiyac var. Məktəblərdə fiziki və pedaqoji şəraitin yaxşılaşdırılması. Fərdi təhsil planlarının hazırlanması və tətbiqi. Valideynlərlə əməkdaşlığın gücləndirilməsi. Cəmiyyətin

maarifləndirilməsi və inklüzivliyin əhəmiyyəti barədə məlumatlandırma kampaniyalarının aparılması. İnklüziv təhsil sosial bərabərlik və keyfiyyətli təhsil üçün mühüm bir addımdır. Bu sistemin effektiv işləməsi üçün dövlət, məktəblər, müəllimlər və valideynlər birlikdə çalışmalıdır.Xüsusilə məktəbəqər müəssisələrdə bu mexanizmi işə salmaq lazımdır. İnklüziv təhsil təkcə xüsusi ehtiyaclı uşaqlar üçün deyil, bütün cəmiyyət üçün faydalıdır və gələcəkdə daha inklüziv bir cəmiyyətin formalaşmasına töhfə verir.

ARTISTIC EXPRESSION OF AMERICAN REALITIES IN THE NOVEL "SISTER CARRIE"

“KERRİ BACI” ROMANINDA AMERİKA REALLIQLARININ BƏDİİ İFADƏSİ

Aynur Zahir Qızı Bədəlova

Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,orcid=0009-0002-9288-6218

Xülasə

Amerika realist ədəbiyyatının ən görkəmli simalarından biri Teodor Drayzer olmuşdur. Drayzerin əsərləri Amerika realizmini əks etdirir və bu gün də sevilərək oxunur. Dahi yazıçının qələmindən çıxan hər əsəri şöhrət qazanmışdır. Xüsusilə də “Kerri bacı” romanı üzərində dayanmaq istərdim. Romanın bir müddət çapına icazə verilməsə də sonra böyük şöhrət qazanır. T. Drayzer “Kerri bacı” romanı ilə oxucunun rəğbətini qazanır. Roman gənc qızın böyük arzuları üzərində qurulmuşdur. Onun arzu və xəyalları, həyat həqiqətləri, real həyat mənzərəsi və uğura tərəf addımlar romanın əsas istiqamətləridir. Məqalədə Teodor Drayzerin “Kerri bacı” romanının əsas qəhrəmanı Kerri obrazı təhlil edilmişdir. Kerinin həyatı, arzuları, reallıqlar qarşısında seçimləri qiymətləndirilmişdir. Romanda Kerrinin Amerika arzusu gerçəkləşir. O, Çikaqoya gələndə var-dövlətə, uğura, şöhrətə və ancaq xəyal edə biləcəyi hər şeyə nail olur.

Açar sözlər: roman, obraz, reallıq, arzu, həyat

Abstract

One of the most prominent figures of American realist literature was Theodore Dreiser. Dreiser's works reflect American realism and are still read with love today. Each work written by the genius writer has gained fame. I would especially like to dwell on the novel "Sister Carrie". Although the novel was not allowed to be published for a while, it later gained great fame. T. Dreiser gained the reader's sympathy with the novel "Sister Carrie". The novel is based on the great dreams of a young girl. Her dreams and aspirations, the realities of life, the real life landscape and steps towards success are the main directions of the novel. The article analyzes the image of Carrie, the main character of Theodore Dreiser's novel "Sister Carrie". Carrie's life, dreams, and choices in the face of reality are evaluated. Carrie's American dream comes true in the novel. When she comes to Chicago, she achieves wealth, success, fame and everything she could only dream of.

Keywords: novel, image, reality, desire, life

Giriş

Amerika realist ədəbiyyatının ən görkəmli simalarından biri Teodor Drayzer olmuşdur. Drayzerin əsərləri Amerika realizmini əks etdirir və bu gün də sevilərək oxunur. Düzgün qeyd olunur ki: *“Bəzi əsərlərin təəssüratları çınqıl, daş boyda olur, bəzilərininki təpə qədər böyüyür, bəzilərində isə qarşında nəhəng dağ hiss edirsən. Bax Drayzer bu cürdür, o yaradanda yalnız dağ yaradır.”*[3.] Dahi yazıçının qələmindən çıxan hər əsəri şöhrət qazanmışdır. Xüsusilə də “Kerri bacı” romanı üzərində dayanmaq istərdim. Romanın bir müddət çapına icazə verilməsə də sonra böyük şöhrət qazanır. Azərbaycan oxucularından biri roman haqqında fikirlərini bölüşərək yazır: *” Bu əsər, insan münasibətlərini o dərəcədə geniş və fəlsəfi təfsilatı ilə təsvir*

edib ki, mütaliədən sonra oxucuda çox dərin izlər buraxır. " [2.] T. Drayzer "Kerri bacı" romanı ilə oxucunun rəğbətini qazanır. Roman gənc qızın böyük arzuları üzərində qurulmuşdur. Onun arzu və xəyalları, həyat həqiqətləri, real həyat mənzərəsi və uğura tərəf addımlar romanın əsas istiqamətləridir. Romanın əvvəlində Kerri oxucuda böyük maraq doğurur. O, xəyalpərəst, təcrübəsiz və sadəlövh, gözəl bir qızdır. O, Amerika arzusunun əsiri olan gənc, orta səviyyədə yaşayan amerikalı qadının təcəssümüdür. Romanda Çikaqo baş qəhrəmanın özünü tapdığı bir şəhər rolunu oynayır. Amma bu necə baş verir? Əsər boyunca Kerinin yaşadıqları, məcburiyyətləri, səhvləri və çıxış nöqtəsini yanlışlarla tamamlaması oxucuda olduqca ağır təəssürat yaradır. Bəli, Kerri başına gələnlər sayəsində böyüyür, daha iradəli, azad, arzularına can atan, güclü qadın obrazına çevrilir. Şəhər Kerrinin yerini tez müəyyənləşdirir. Böyük şəhərdə gənc qızın arzuları kimi, həyatı da dəyişir. Tapdığı iş onun arzularından çox uzaq, reallıqların tam özünə çevrilir. Sadə və gözəl, təmtəraqlı paltarlar xəyalı ilə yaşayan qız kişi ayaqqabılarında bağlar üçün deşiklər açır. Gələn kimi Kerri özünü böyük şəhər həyatının burulğanına atır desək düzgün olmaz. Kerinin pis, əxlaqsız məqsədləri olmur, ətrafda baş verənləri sakitcə müşahidə edir və vicdanla öz yerini tapmağa çalışır. Əlbəttə ki, o, əyləncə, dəbdəbə və zənginliyə cəlb olunur. O, Çikaqonu bütün şöhrəti ilə yaşamaq istəyir, lakin xəyallarından uzaq bir reallıqla qarşılaşır. İlk dərsi o, bacısının yaşadığı ailədən alır. Burada müəllif aşağı gəlirli o dövrün tipik Amerika ailəsini təsvir edir. Bacısının həyat yoldaşı çörək pulu üçün çox israrlı və dürüst işləyir. O, ailədə lazımi hörmətə malik olan şəxsdir. Ailəsi kasıb və onun düşüncəsilə hərəkət edən, öz fikirləri olmayan, əyləncədən uzaq, lakin dürüst və layiqli yaşayır. Kerri də vicdanla belə bir dünyaya sığmağa çalışır. O, inadla ayaqqabı fabrikində fiziki cəhətdən yorucu və az maaşlı bir iş axtarır və tapır. Bu mərhələdə Drayzer işçilərin acınacaqlı vəziyyətini, dəhşətli iş şəraitini, hüquqsuzluğu bütün reallıqları ilə ətraflı təsvir edir. Kerrinin cüzi maaşı yaşayış xərclərini çətinliklə qarşılayırdı. Hansı geyimlərdən, hansı əyləncədən söhbət gedə bilərdi? Amma ruhu tamam başqa mühitdə idi. Onun gözləri dünyanın zəngin nümayəndələrinə həsədlə baxırdı. O, belə iş şəraitinə, belə maaşlara, fəhlələrin sadə və ədəbsiz eyhamlarına, qızların sadəliyinə, iddiasızlığına öyrəşə bilmirdi. Kerri bacısının evinə qayıtdı və acınacaqlı və rəngsiz həyatın kədərli mənzərəsini gördü. Gəzmək, nəsə görmək üçün bacısını harasa çıxarmağa cılız cəhdlər etdi, amma qarşısı alındı. Nəhayət, hətta bir saat giriş qapısında dayanıb, yoldan keçənlərə göz yummaq da ədəbsiz bir şeyə çevrildi və yaxınları tərəfindən qınandı. Belə bir həyat əlbəttə ki, Kerrini məhv edilməsi idi. Lakin, onun yadına Drue ilə görüşləri düşür. Əslində Kerri həyatın axını ilə gedəcək və ona təklif olunanları qəbul edəcəkdi. Şübhə etmək, narahat olmaq hissləri ondan uzaq olacaqdı. Ona görə o, həqiqətən öz cəlbediciliyini hiss edir və öz dəyərini bilirdi. Ona cəlbedici həyat təklif edən ilk şəxs ticarətlə məşğul olan Drue olur. Kerri onunla yaşamağa başlayandan sonra getdikcə uçuruma yuvarlanır. Druenin dostu Herstvudla tanış olur. Ona güvənməyə başlayır, lakin tezliklə onu da tanıyır və aldadıldığını öyrənir. Beləliklə, bundan sonra biz artıq güclü, arzularının dalınca gedən, təmtəraqlı həyatı arzularında deyil həyatında canlandıran Kerrini görürük. Məşhur aktrisaya çevrilən Kerri üçün artıq həyatda ən böyük arzusu reallaşır. O, öz ayaqları üzərində möhkəm dayanır. Müəllif sonda bizə Herstvudun acınacaqlı ölümünü göstərir.

Bununla da Kerrinin Amerika arzusu gerçəkləşdi. O, Çikaqoya gələndə var-dövlətə, uğura, şöhrətə və ancaq xəyal edə biləcəyi hər şeyə nail oldu. O zaman bütün bunlar həyatın məqsədi olduğunu iddia edərək əlçatmaz, ona görə də vacib və zəruri görünürdü. İndi hər şeyə nail olduqdan sonra Kerri anladı ki, xoşbəxtlik bunda deyil, bir vaxtlar onu sınamış həyat tərzində deyil. İndi hər şey adi, maraqsız görünürdü. O, tənha qalır. Ancaq hər hansı bir həssas insan kimi, xəyal qurmağa davam edir.

Ədəbiyyat

1. T. Drayzer. Kerri bacı. Bakı - Avrasiya press, 2006, 472 səh

2. “Kerri bacı” Teodor Drayzer https://kitabadasi.wordpress.com/2014/11/02/kerri-baci-teodor-drayzer/
3. Drayzerin doğum gününə - Kerri bacı dahimi idi? https://www.edebiyyatveincesenet.az/index.php/ru/reytinq/item/16757-drayzerin-doghum-zhununae-kerri-badz-dahimi-idi

GRAMMATICAL FEATURES OF THE AZERBAIJAN LANGUAGE AND THEIR TEACHING

AZERBAYCAN DİLİNİN GRAMER ÖZELLİKLERİ VE ÖĞRETİMİ

Arzu Kərimova

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ü. Hacıbəyov-68),

ORCİD:0000-0002-2662-6015

ÖZET

Makalede Azerbaycan dilinin gramer özellikleri ve bunların öğretimi incelenmektedir. Azerbaycan dili, Türk dil ailesinin Oğuz grubuna ait olup eklemeli bir yapıya sahiptir. Bu dilin morfolojik ve sentaktik özellikleri bakımından kendine özgü özellikleri vardır. Özellikle sözcüklerin eklerle oluşturulması, dilbilgisi açısından cinsiyet ayrımının olmaması, cümle sonunda fiil kullanılması, sözcük diziminde belirli kuralların varlığı gibi temel noktalar incelenmektedir.

Azerbaycan dilinin gramerinin öğretilmesi süreci de ayrı bir önem taşımaktadır. Modern zamanlarda dil bilgisi öğretimi sadece geleneksel kurallarla sınırlı kalmamakta, aynı zamanda etkileşimli ve teknolojik araçlarla da desteklenmektedir. Dilbilgisi öğretiminin temel amacı, öğrencilerin teorik bilgilerini pratik konuşma becerileriyle desteklemektir. Bu amaçla görsel, işitsel ve etkileşimli öğretim yöntemlerinden yaygın olarak yararlanılmaktadır.

Makalede ayrıca dil bilgisi öğrenmenin önemi vurgulanıyor. Doğru dil bilgisi bilgisi öğrencilerin yazma ve konuşma becerilerini geliştirmelerine yardımcı olur. Dilbilgisi derslerinin etkili olabilmesi için çağdaş teknolojilerin, multimedya araçlarının ve etkileşimli öğretim yöntemlerinin kullanılması önerilmektedir.

Ayrıca Azerbaycan dilinin dil bilgisi yapısı diğer Türk dilleriyle karşılaştırmalı olarak incelenmekte ve bu karşılaştırmaların öğretim sürecinde nasıl kullanılabileceği açıklanmaktadır. Makalede ayrıca dil bilgisi öğretimi sırasında ortaya çıkan zorluklar ve bunların çözüm yolları da ele alınıyor.

Anahtar kelimeler: dil bilgisi, dil, öğretim süreci, etkileşimli, kural.

ABSTRACT

The article examines the grammatical features of the Azerbaijani language and their teaching. The Azerbaijani language is included in the Oghuz group of the Turkic language family and has an agglutinative structure. In terms of morphological and syntactic features, this language has its own unique features. In particular, the main points such as the formation of words through suffixes, the absence of grammatical gender, the use of the verb at the end of the sentence and the presence of certain rules in word order are considered.

The process of teaching the grammar of the Azerbaijani language is also of particular importance. In modern times, grammar teaching is not limited to traditional rules, but is also supported by interactive and technological means. The main goal of teaching grammar is to supplement students' theoretical knowledge with practical speech skills. For this purpose, visual, audio and interactive teaching methods are widely used.

The article also emphasizes the importance of learning grammar. Correct grammar knowledge helps students develop writing and oral speech skills. In order to make grammar lessons effective, the use of modern technologies, multimedia tools and interactive teaching methods is recommended.

In addition, the grammar of the Azerbaijani language is examined in a comparative manner with other Turkic languages, and how these comparisons can be applied in the teaching process is explained. The article also discusses the difficulties that arise during the teaching of grammar and ways to solve them.

Key words: grammar, language, teaching process, interactive, rule.

Bu məqalədə Azərbaycan dilinin qrammatik xüsusiyyətləri və onların tədrisi araşdırılır. Azərbaycan dili türk dilləri ailəsinin oğuz qrupuna daxil olub, aqqlutinativ quruluşa malikdir. Morfoloji və sintaktik xüsusiyyətlər baxımından bu dilin özünəməxsus cəhətləri vardır. Xüsusilə, şəkilçi vasitəsilə sözlərin formalaşması, qrammatik cinsin olmaması, feilin cümlə sonunda işlənməsi və söz düzümündə müəyyən qaydaların olması kimi əsas məqamlar nəzərdən keçirilir.

Azərbaycan dilinin qrammatikasının tədrisi prosesi də xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrdə qrammatika tədrisi təkcə ənənəvi qaydalarla məhdudlaşmır, eyni zamanda interaktiv və texnoloji vasitələrlə də dəstəklənir. Qrammatikanın tədrisində əsas məqsəd şagirdlərin nəzəri biliklərini praktik nitq bacarıqları ilə tamamlamasıdır. Bu məqsədlə vizual, audio və interaktiv dərs metodları geniş tətbiq edilir. [1, 51]

Məqalədə həmçinin qrammatika öyrənmənin əhəmiyyəti vurğulanır. Düzgün qrammatika bilikləri şagirdlərə yazı və şifahi nitq bacarıqlarını inkişaf etdirməyə kömək edir. Qrammatika dərslərinin effektiv olması üçün müasir texnologiyaların, multimedia vasitələrinin və interaktiv tədris metodlarının istifadəsi tövsiyə olunur.

Bununla yanaşı, Azərbaycan dilinin qrammatikası digər türk dilləri ilə müqayisəli şəkildə də araşdırılır və bu müqayisələrin tədris prosesində hansı formada tətbiq edilə biləcəyi izah edilir. Məqalədə qrammatikanın tədrisi zamanı yaranan çətinliklər və onların həlli yolları barədə də fikir mübadiləsi aparılır.

Giriş. Azərbaycan dili türk dilləri ailəsinə aid olub, qrammatik quruluşu baxımından aqqlutinativ dillər sinfinə daxildir. Bu dilin qrammatik sistemi çoxşaxəli, ancaq eyni zamanda ardıcıllıq və loqika əsasında qurulmuşdur. Bu məqalədə Azərbaycan dilinin qrammatik xüsusiyyətləri üzərində dayanılacaq və bu xüsusiyyətlərin tədrisdə istifadəsi araşdırılacaq.

Morfoloji xüsusiyyətlər. Azərbaycan dilinin morfologiyası çoxşaxəli və əsaslı bir sistem təşkil edir. Dildəki söz formalaşması aqqlutinativ prinsiplərə sadiqdir, yəni, söz köklərinə əlavə edilən şəkilçi vasitəsilə yeni sözlər və formalar yaradılır. Azərbaycan dilinin morfologiyasında bunlar diqqətə çatdırılır: [2, 108]

–cins kateqoriyası yoxdur;

–hallanma sistemli və ardıcıldır;

–şəxs və zaman kateqoriyaları feildə aydın ifadə olunur;

–qoşma və şəkilçi vasitələri ilə yeni söz yaratma sistemi mövcuddur;

–mürəkkəb sözlər əsasən qoşulmalar və təkrarlamalar vasitəsilə formalaşır.

Sintaktik xüsusiyyətlər. Azərbaycan dilinin sintaksisi cümlə quruluşunun açıq və aydın qaydalarla əmələ gəldiyini göstərir. Müəyyən xüsusiyyətlər aşağıdakılardır:

–Cümlədə söz ardıcıllığı əsaslı rol oynayır;

–Fikrin ifadəsi çox hallarda bağlı cümlələrlə reallaşır;

–Feil cümlənin sonunda olur və sintaktik vurğuya malikdir;

–Şifahi və yazılı nitq formalarında sintaktik qaydalar dəqiq şəkildə izlənir;

–Mübtəda və xəbərin cümlədə sıx əlaqəsi saxlanılır;

–Müxtəlif mürəkkəb cümlə tipləri geniş istifadə olunur.

Azərbaycan dilinin lüğət tərkibi çox zəngindir. Türk mənşəli sözlərdən əlavə, ərəb, fars və rus dillərindən alınmalar da mövcuddur. Müasir dövrdə elmi-texniki terminlər və beynəlxalq sözlər Azərbaycan dilinə daxil olmaqdadır.

Azərbaycan dilinin qrammatikasını öyrətmə prosesi kompleks yanaşma tələb edir. Qrammatikanı öyrətməyin əsas prinsipləri aşağıdakılardır:

Qrammatikanın izahı sadə və konkret olmalıdır. Teorik biliklər mütləq şagirdlərin istifadə edə biləcəyi praktiki təlimlər vasitəsilə tədris edilməlidir. [3, 21-22]

Müasir texnologiyalar qrammatika tədrisinə yeni yanaşmalar gətirir. Animasiya, video dərslər, interaktiv tapşırıqlar qrammatikanı daha anlaşılan edir. Həmçinin, qrammatika dərslərində interaktiv lövhələrdən istifadə şagirdlərin mövzunu daha asan mənimsəməsinə kömək edir.

Dildə qrammatik qaydaları bilmək kifayət deyil, bu qaydaları nitq və yazıda tətbiq etmək lazımdır. Düzgün qrammatik şəkildə danışıq və yazı vərdişlərinin təkmilləşdirilməsi çox vacibdir. Bu məqsədlə dialoqlar, məqalə yazma tapşırıqları və interaktiv danışıq məşqləri həyata keçirilir.

Son illərdə interaktiv tədris yanaşmaları qrammatikanın mənimsənilməsinə mühüm töhfələr verir. Dil laboratoriyaları, elektron dərsliklər və onlayn tədris platformaları vasitəsilə şagirdlər qrammatik qaydaları daha sürətli və effektiv şəkildə öyrənə bilirlər. Bundan əlavə, oyunlaşdırma üsulları və simulyasiya texnologiyaları qrammatika öyrənməni daha əyləncəli və məhsuldar edir.

Qrammatikanın tədrisində bəzi çətinliklər meydana çıxır:

–Şagirdlərin nəzəri bilikləri praktik istifadə ilə əlaqələndirə bilməməsi;

–Ənənəvi tədris metodlarının bəzi hallarda qeyri-effektiv olması;

–Yeni texnologiyalardan istifadənin məhdud olması. [4, 89]

Bu problemləri aradan qaldırmaq üçün müasir yanaşmalara üstünlük verilməli və texnologiyaların tədrisə inteqrasiyası artırılmalıdır.

Nəticə. Yekun olaraq qeyd etmək istərdim ki, Azərbaycan dilinin qrammatik xüsusiyyətləri onu digər dillərdən fərqləndirir və öyrənilmə prosesini maraqlı edir. Qrammatika tədrisi müasir metodlarla daha effektiv hala gəlir və şagirdlərin dildə məharət qazanmasını asanlaşdırır. Qrammatika yalnız yazılı və şifahi ifadə bacarıqlarını artırmaqla kifayətlənmir, həm də düşünmə qabiliyyətini inkişaf etdirir. Buna görə də, tədris prosesində müasir texnologiyalar və interaktiv metodlar daha geniş istifadə edilməlidir. Azərbaycan dili tədrisinin daha səmərəli olması üçün innovativ yanaşmaların tətbiqi vacibdir.

Anahtar kelimeler: dil bilgisi, dil, öğretim süreci, etkileşimli, kural

Key words: grammar, language, teaching process, interactive, rule.

İstifadə edilən ədəbiyyat

1.Əliyev A. Azərbaycan dilinin qrammatikası. Bakı: Şərq-Qərb nəşriyyatı, 2007.

2.Hacıyev T. Azərbaycan dilinin morfologiyası. Bakı: Maarif nəşriyyatı, 2013.

3.Quliyev M. Azərbaycan dilinin sintaksisi və onun tədrisi. Bakı: Təhsil nəşriyyatı, 2015.

4.Məmmədli N. Azərbaycan dili və qrammatika tədrisinin əsasları. Bakı: Elm və Təhsil nəşriyyatı, 2018.

5.Vəliyev F. Azərbaycan dilində sözlərin yaranma və inkişaf xüsusiyyətləri. Bakı: Nurlar nəşriyyatı, 2020.

6.Azərbaycan Milli Elmlər Akademiyası. Azərbaycan dilinin orfoqrafiya və qrammatika qaydaları. Bakı: AMEA nəşriyyatı, 2016.

7.Məmmədov K. Müasir Azərbaycan dilinin qrammatik əsasları. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2019.

8.Rüstəmov A. Dilçilik və qrammatika: Azərbaycan dili nümunəsində. Bakı: Təhsil və Elm nəşriyyatı, 2021.

9.Əlizadə S. Azərbaycan dilinin fonetik və morfoloji quruluşu. Bakı: Maarif nəşriyyatı, 2017.

10.Həsənova G. Müasir Azərbaycan dilinin qrammatik inkişafı və öyrədilməsi. Bakı: Yeni Nəşr nəşriyyatı, 2022.

MÖVCUD ŞƏRAİTƏ DÜŞMÜŞ İNSANIN DAVRANIŞI VƏ PSİXOLOGİYASI

Çobanova Nərgiz Məhəmməd qızı

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecin müəllimi

Abstract. Conditions that go beyond the framework of ordinary life, characterized by an intensive impact on unfavorable environmental factors, and at the same time pose a threat to human life and health, are not considered to be current conditions. A person can fall into current conditions for various reasons. Often, extreme situations arise due to a person's own fault.

Keywords: Environment, behavior, psychology

Ətraf mühitin əlverişsiz faktorlarına intensiv təsir xarakteri daşıyan adi hal çərçivəsindən kənara çıxan, eyni zamanda insan həyatı və sağlamlığı üçün təhlükə yaradan şəraitə mövcud şərait deyilir. İnsan mövcud şəraitə müxtəlif səbəblərdən düşə bilər. Çox vaxt insanın öz günahı ucbatından ekstremal hal yaranır. Bunlar aşağıdakılardır:

• Təbiətdə və sosial əhatədə təhlükəsizlik haqqında biliklərə və təcrübəyə malik olmadan;

• Ağılsızlıq ucbatından;

• Təhlükəsizlik normaları və qaydalarına laqeyd münasibət bəslədiyindən gözlənilməz vəziyyətlə rastlaşdıqda;

• Qeyri-adi çətin vəziyyətə düşdükdə, köməksiz qaldıqda və sadə, lakin həyat üçün vacib olan məsələləri həll edə bilmədikdə.

Mövcud vəziyyətdə insanda stress adlanan xüsusi emosional gərginlik yaranır. Bu cür gərginlik insanın adi psixi prosesini dəyişir, duyma, hissetmə, diqqət keyfiyyətlərini zəiflədir, təfəkkürünü, yaddaşını, təsəvvürünü keyləşdirir, nitqini və düşüncəsini tormozlayır.

Həyat üçün təhlükəli olan vəziyyətlərdə insanın dözümlülüyü çox böyük rol oynayır. Bu keyfiyyət insanın həm gündəlik həyat fəaliyyətində, həm də məqsədyönlü iradi hazırlıq prosesində formalaşır. Həyat təcrübəsində özünü idarəetmə metodları aşağıdakılardır: özünə inam, özünə əmr və özünü idarəetmə.

Özünə inamın mahiyyəti - insanın özünü hər hansı bir fəaliyyətə məqsədli şəkildə inandırmaqdır. Özünə inam adətən o halda istifadə olunur ki, insan hər hansı bir ideyanı müsbət qarşılayır, lakin onu həyata keçirməyə iradəsi çatmır. Məsələn, insanın sağlamlığı fiziki tərbiyədən çox asılı olduğu halda o, bununla məşğul olmur. Mövcud vəziyyətdə özünü idarə bacarığı üçün lazım olan fəaliyyət növü - özünə əmrdir.

Bu o zaman baş verir ki, insan öz fikirlərinə nəzarət edə bilir, verdiyi sözə əməl edir, daxili səsinə qulaq asır. Özünə əmr o vaxt effektiv olur ki, insanın həyat mövqeyi inamı ilə uyğun gəlsin. Özünə əmr və özünə inam bir-biri ilə sıx bağlıdırlar. Özünə əmr o vaxt bəhrə verir ki, özünə inam güclü olsun və özünə inam da özünə əmrlə: «Bəsdir!», «Bitdi!», «Yenə!», «Lazımdır!», «Dur!», «İrəli!» və s. komandalar versin. Özünə əmrə tabe olmaq bacarığı ekstremal vəziyyətlərdə, döyüşün gərgin anında və ya hərbi xidmətin heç də asan olmayan vəzifələrini yerinə yetirərkən çox böyük həlledici rol oynaya bilər.

Özünü idarə insanda cəsurluq, dözümlük, sərbəstlik, qətiyyətlik kimi iradi keyfiyyətləri inkişaf etdirir. İnsanın iradəsinin möhkəmlənməsi yollarından biri də bədən tərbiyəsi və idmanla

müntəzəm məşğələlərdir. Məşğələ zamanı çətinliklərin dəf edilməsi yalnız əzələlərin deyil, iradənin də məşqi deməkdir. Psixofiziki xarakterli hərəkətlər daha çox təsirə malikdir. Bura diqqət hərəkətlərin koordinasiyası, cəldlik, dözümlük kimi keyfiyyətlərin inkişaf etdirilməsi aiddir. Qısa vaxt ərzində düşünülmüş, cəld qəbul edilmiş qərarlar, tələb edilən kəskin vəziyyətin dəyişkənliyi insan həyatı üçün lazımdır. Belə hərəkətlər gərginlik, qorxu, həyəcan, təhlükə, tərəddüd hissləri yaradır. İnsan ekstremal hallarda bu kefiyyətləri dəf etməyə özünü məcbur edə bilər.

Mövcud vəziyyətə düşən insanın öz fəaliyyətini aşağıdakı kimi qurması daha məqsədəuyğundur: stresi atmaq; vəziyyəti qiymətləndirmək; qərar qəbul etmək və qəbul olunan qərara uyğun hərəkət etmək. Stresi (həyəcanı) ilk öncə dəf etmək olduqca vacibdir, əks halda sonrakı fəaliyyət səhv ola bilər və vəziyyətin gərginləşməsinə gətirib çıxarar. Fiziki təsirlər və qıcıqlandırıcılar yararlı ola bilər:

- üzü və gicgahı ovucla kəskin sürtmələr;
- sifətə vurmaq;
- üzə, başa və ya bədənə su çiləmək;
- sakitləşdirici həblər qəbul etmək.

Əgər insan meşədə azarsa, stresdən azad olmaq üçün onun müəyyən vaxtı olacaq. Əgər onun üstünə divar düşərsə və ya alov axını hərəkət edərsə təbii ki, düşünməyə vaxtı olmayacaq və hər şey bir an içində həll olunacaq. Stresdən tam və ya müəyyən qədər azad olduqdan sonra vəziyyəti qiymətləndirmək lazımdır.

Müəyyən etmək lazımdır ki, təhlükəli vəziyyət bitib ya yox və onun yenidən təkrarlanması gözlənilirmi? Sonra özünün və ətrafındakıların sağlamlığını–xəstələrin və yaralıların, ilk tibbi yardım tələb olunanların sayını müəyyən etmək lazımdır. Bundan sonra suyun, yeməyin, tibb ləvazimatların və s. miqdarını nəzərə almaq lazımdır. Təbii ki, isti havada suyun, qışda isə isti geyimin, yanacağın, döyüş zamanı isə silah və sursatın olması vacibdir.

Şəraiti qiymətləndirərkən ilin fəslini, havanı, vaxtı, ərazini (meşə, bataqlıq, yol, yaşayış məntəqəsindən uzaqlıq) və həmin an vacib olan digər anlar nəzərə alınmalıdır. Şəraitin qiymətləndirilməsi əsasında qərar verilir. Bəzi hallarda yalnız bir doğru qərar, bəzi hallarda isə müxtəlif variantlı çıxış yolları mümkündür. Qısa müddətdə optimal qərar vermək lazımdır. Şəraitə uyğun məntiqi tez, rasional hərəkət etməyi öyrənmək vacibdir. Ekstremal vəziyyətlər zamanı hərəkətləri özündə yaratmaq və daima təkmilləşdirmək lazımdır.

Təbiətdə mövcud şəraitə düşərkən çox vaxt iki yoldan birini seçmək lazım gəlir: ya yolu davam etmək, ya da yerində kömək gözləmək. Hərəkət etməzdən qabaq həmin ərazinin səmtini təyin etmək, marşrutu və ya istiqaməti müəyyənləşdirmək lazımdır. Uzaq məsafəyə yerdəyişmə zamanı gücə qənaət etmək, aram addımlarla getmək, ayaqları paralel qoymaq lazımdır. Bu zaman dönmə bucağı 10 dərəcədən artıq olmamalı, dabanlar arasındakı məsafə 3 sm–dək olmalıdır. 20 dəqiqə getdikdən sonra yolun 1-ci kilometrini dəf etdikdə ilk dincəlməni həyata keçirmək məqsədəuyğundur. Dincələrkən baxmaq lazımdır ki, ayaqqabı ayağı döyüb ya yox, geyim və təchizat qaydasındadır, çanta düzgün yığılıb ya yox. Əgər ayaqqabı ayağı sürtübsə bu zaman corabı çıxardıb əksinə (sağı sola, solu sağa) geymək lazımdır. Yolda hərəkət istiqamətini daim nəzərdə saxlamaq lazımdır.

Əgər keçilməsi mümkün olmayan bataqlığa rast gəlinərsə, onu dəf etməzdən əvvəl 2-3 m uzunluğu və 5-10 sm eni olan şüvül əldə etmək, göldə ehtiyatla hərəkət etmək, bərk sahələrdən və koldan istifadə etmək lazımdır. Gölməçələri, quru palçığı, boz axarı olan açıq–yaşıl otlu yerləri ötüb keçmək lazımdır. Çalışın ağaclara və kollara yaxın olasınız. Əgər siz təsadüfən

bataqlığa düşmüsüzsə, qorxmayın və həyəcanlanmayın. Şüvülün ortasından tutub ucunu kolun budaqlarına qoyun və dayağı hiss edin.

Sonra ətrafa baxın, sakitləşin və çıxmaq üçün əlverişli istiqaməti seçin. Bu zaman kəskin hərəkətlə, ayaqları hərəkət etdirmək olmaz. Şüvülə dayaqlanaraq dərindən nəfəs alın və qarnınız üstündə yaxın kola tərəf gedin.

Çay və su hövzələrindən nəsə keçirmək istəyəndə ilk əvvəl dayazlığı axtarmaq lazımdır. Suya girməzdən əvvəl corabları soyunub, ayaqqabıları geymək məqsədəuyğundur. Əgər sizə yükü çaydan quru keçirmək lazımdırsa və siz dayazlığı tapa bilməmisinizsə, bu zaman üzən vasitə tapmağa çalışın. Ən etibarlı və təhlükəsiz üzən vasitə ağacdan hazırlanmış saldır. 3 m uzunluğunda, 20–25 sm enində, 4–5 kötük birlikdə bağlanaraq, 1 nəfərlik etibarlı sal rolunu oynaya bilən vasitə hazırlanmalıdır. Əgər siz çayı üzərək keçmək məcburiyyətində qalmısınızsa, bu zaman «brass» üsulundan istifadə edərək (yəni arxası və ya yanakı üzmək) üzmək lazımdır. Bu üsul tez yorulmağa qoymur və keçirilməsi lazım olan əşyanı və paltarları quru saxlamağa imkan verir. Çayı istənilən halda 45 dərəcə bucaq altında başı yuxarı keçmək lazımdır.

Sıx meşəyə düşərsizsə narahat olmayın. İstiqaməti təyin edin və yola düşün. Uzunqol geymək sizi cızıqlardan, əzilmələrdən, sancmalardan qoruyar.

Yolu gedərkən tez–tez dayanın və sizə lazım olan istiqamətdən dönmədiyinizə əmin olun. Əgər məqsədiniz insan məskəninə çıxmaqdırsa, meşəyə düşdükdə yol və ya cığır sizin sonrakı yolunuzdur. Lakin burada da çaşmamalı. Əgər getdiyiniz yol az gedilmişdirsə, istiqaməti dəyişməlisiniz.

Ən yaxşı vasitələrdən biri də ocaq qalamaqdır. Tüstünün çox olması üçün yanan ocağa təzə ot, yarpaqlar atmaq olar. Gecələr iynəyarpaqlı ağacların budaqlaından istifadə edilsə, ocaq daha gur və qığılcımlı olar.

Günəşli havada güzgüdən, konserva bankasından, kəmərin toqqasından, şokaladın gümüşü kağızından və ya parıldaya bilən müxtəlif vasitələrdən istifadə etmək olar. 1–1,5 km yüksəklikdə təyyarəçi günəş şüalarının əksini 20 km məsafədən görə bilir. Siqnalı fitlə, qışqırıqla, fənərlə, açıq rəngli əşyaları yelləməklə də vermək olar.

Beynəlxalq xilasetmə xidmətləri üçün rəngli raketler istifadə olunur ki, bunu da hər dəqiqədə 6 dəfə atmaq lazımdır. Hava gəmisinin axtarış heyətinin diqqətini müxtəlif siqnallarla: ərazidə qarı əzmək, daşlar düzmək, kollardan müxtəlif fiqurlar kəsməklə cəlb etmək olar.

Beynəlxalq kodlu siqnalların bir neçəsini nümunə gətirək:

• Həkim lazımdır – **I**

• Tibbi ləvazimat lazımdır – **II**

• Hərəkəti davam etdirməyə taqətim yoxdur – **X**

• Qida və su lazımdır – **F**

• Enmə yeri – **D**

• Hər şey yaxşıdır – **L**, yox – **N** və hə - **Y**.

QƏDİM MİSİR İNCƏSƏNƏTİNİN FORMALAŞMASI

Seyfullayeva Aynur Tahir qızı

Azərbaycan Dövlət Pedaqoji Universitedi Nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci Təsviri incəsənət müəllimi

Abstract:

In ancient Egypt, the basis of literary works is oral folk art. The oldest works date back to the 5th millennium BC. For three thousand years, the ancient Egyptians created a rich body of literary works in various genres (myth, fairy tale, epic, parable, advice, philosophical dialogues, hymns, prayers, laments, poetry). Fairy tales included in oral folk art mainly reflected the peasant lifestyle and worldview. Along with such tales, tales dedicated to pharaohs and nobles were also widespread. Their favorite fairy tales were written for the pharaohs and were usually placed in their tombs along with the mummy. The ancient Egyptians glorified wisdom and humanism through fairy tales, and tried to show the intelligence, struggle, and steadfastness of ordinary people. Such tales include "The Shipwrecked Man", "The Tale of the Straight and the Crooked", "Pharaoh Khufu and the Witches", "The Tale of Two Brothers", etc. The ancient Egyptians glorified kindness and wisdom through fairy tales, and revealed the wisdom, justice, and courage of the common man. Fairy tales reflected the idea of the unshakable power of the gods and pharaohs, and depicted the tyranny and cruelty of the nobility. The ancient Egyptians explained the events in nature and human life with religious ideology. The legend of Osiris, whom the Egyptians considered the god of nature who died and was resurrected, is typical in this regard. During the Middle and New Kingdoms, there are exhortations in literature defending the existing state and social structure. Such exhortations reflect social contradictions, the attitude of the higher to the lower, the unpleasant consequences of popular uprisings, etc. As examples of these advices, we can cite "Advice to Merika, son of Akhtoy, ruler of Heraklopolis", "Advice of Amenemkhet I", "Advice to Akhtoy, son of Duauf", "Word of Ipuser", "Advice of Nefertifm", etc.

Keywords: World, ancient, Egypt, art, history

Böyük tarixi minilliklər əhatə edən Qədim Misir mədə niyyətinin inkişafına diqqət yetirsək aşağıdakı əsas mərhələlərə bölünür:

- Sülaləyə qədərki dövr: b.e.ə. V-IV minillik zamanı nəsil lərin dağılması və sinifli cəmiyyətin yaranması və tədricən qə dim Misir incəsənətinin ilkin mərhələsinin yekunlaşması. Bu dövrün inkişafını iki mərhələyə I və II sülaləyə qədərki mədə niyyətlər kimi xarakterizə etmək olar.

- Erkən şahlıq dövrü: I və II sülalələr, təxminən b.e.ə. 3050-dən 2686-cı ilə qədər.

- Qədim şahlıq dövrü: III-VI sülalələr, b.e.ə. XXVIII XXIII əsrlər.

- Orta şahlıq dövrü: XI-XII sülalələr, b.e.ə. XXI-XVIII əsrlər.

- Yeni şahlıq dövrü: XVIII-XX sülalələr b.e.ə. XVI və XI əsrlər.

- Son şahlıq dövrü: XXI-XXXII sülalələr, b.e.ə. XI-IV əsrlər.

VII-X sülalənin tarixi inkişaf mərhələsi mərkəzləşdirilmiş Misir dövlətinin birinci dağılma dövrüdür. XIII-XIV sülalələrin idarəetmə dövrü ərzində ikinci tənəzzül baş verir. XV-XVI sü

lalələr zamanı ölkəyə hiksos tayfaları daxil olurlar. Hiksoslarla uğurlu mübarizə apardığına baxmayaraq, XVII sülalə əhəmiyyətli abidələr qoymamışdılar.

Qədim Misirin spesifik xüsusiyyətlərindən biri ölkənin və incəsənətin bütün rəngarəngliyi ilə inkişafı və onun nisbətən coğrafi qapalılığı idi. Nümunə olaraq, İkiçayarasında izlənilən böyük xarici təzyiqlər burada nəzərə çarpmır.

B.e.ə. V əsrin məşhur yunan tarixçisi Herodot buranı "Ni lin bəxşi" adlandırmışdı. Adlandırılan bu ifadə demək olar ki, Asiyanın cənub sərhədinin ilk astanasından başlayaraq, şimal sərhədi, Aralıq dənizinə kimi ölkə ərazisi boyu uzanan bu nə həng, böyük çayın tarixi Misirin həyatında oynadığı misilsiz əhəmiyyətini tam parlaqlığı ilə nümayiş etdirir. Nilin hər ilki daşqınından sonra Misirdə yarım ildən artıq uzanan böyük bir quraqlıq dövrü başlayırdı.

Misir əhalisi artıq qədim zamanlardan təsərrüfatın əsası olan süni suvarmaya əsaslanan əkinçilik üçün suyun axarının hardan gəldiyini öyrənmişdir. Əkinçilik ilə yanaşı, həm kiçik, həm də iri maldarlıq əhali arasında böyük rol oynayırdı. Çox qədim zamanlarda əhalinin başlıca qida əldə etməyi üçün ov etmə ilə bərabər, balıqçılıq da sonrakı dövrlərdə unudulmamış dır.

Müxtəlif növ möhkəm, əzəl qranitdən, dioritdən, porfirdən tutmuş əhəngdaşı və qumdaşına kimi yumşaq süxurlara kimi, həmçinin xırda məmulat hazırlamaq üçün rəngli materiallar ilə - parlaq sarı əqiq - onikslə, sernentlə və qiymətli zümrüd daşla rı ilə də Misir zəngindir. Misirdə nisbətən yüksək dəyəri və ba halı material olan ağac tezliklə daha möhkəm tikinti materialı hesab edilən daşla əvəz olundu.

Misir metal yataqları bir o qədər də zəngin deyil, lakin qı zılı burada hələ dövlət təşəkkül tapmayana kimi "sülaləyə qə dər" adlanan dövrdə ölkənin cənub sərhədindən uzaq olmayan Nubidə əldə etməyə başladılar. Tunc Sinay yarımadasında ha zırlansa da, Kipr adasından gətirilirdi. Misirlilərin tuncla bağlı fikirləri və əlaqələri hələ çox əvvəllərdən başlamışdı. Misirdə qədimdən bəri qızıldan daha artıq qiymətləndirilən gümüş bu raya, yəqin ki, kiçik Asiyadan, Tavra dağlarından gətirilirdi. Dəmir isə misirlilərdə yalnız b.e.ə. II minilliyin ikinci yarısında xüsusilə Yeni şahlıq dövrü zamanı çox az miqdarda istifadə olunurdu.

Qədim Misirin incəsənət abidələri bütün tarixi boyu əksər hallarda əhali üçün ibadət məqsədi daşıyırdı. Qədim Misir cəmiyyətinin ləng inkişafı və dini təsəvvür lərin durğunluğu burada bədii obrazların və üsulların qanuni ləşməsinə gətirib çıxardı. Odur ki, ölkənin hələ qədim dövrdən inkişaf edən mədəniyyətində incəsənət əsrlər boyu, bir çox minilliklər ərzində özünün səciyyəvi əlamətlərini qoruyub sax laya bilmişdir. Lakin buna baxmayaraq, Qədim Misir incəsənəti ayrı-ayrı tarixi dövrlərdə müxtəlif bədii formalar yaradaraq öz xüsusiyyətini dəyişmişdir.

Misir incəsənətində həmişə memarlıq aparıcı sahə olub. İncəsənətin digər növləri də ondan asılı idilər. Misir incəsənə tinin əsas və səciyyəvi cəhəti kompleks halında olmasıdır.

İNTİBAH DÖVRÜ DEKORATİV – TƏTBİQİ SƏNƏTİ

Seyfullayeva Aynur Tahir qızı

Azərbaycan Dövlət Pedaqoji Universitedi Nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci Təsviri incəsənət müəllimi

Abstract:

The intellectual foundation of the Renaissance was its own version of humanism. Humanism emerged from the rediscovery of classical Greek philosophy, such as the Roman concept of humanitas and the philosophical ideas of Protagoras, who said that man is the measure of all things. This new thinking manifested itself in art, architecture, politics, science, and literature. Early examples of the period include the development of perspective in oil painting and the renewed knowledge of concrete. Although the invention of portable metalwork spread rapidly from the late 15th century onwards, Renaissance changes were not uniform across Europe: the first traces of the Renaissance in Italy can be found in the early 13th century, notably in the writings of Dante and the paintings of Cotto.

The Renaissance was a cultural movement that profoundly influenced European intellectual life during the early modern period. Beginning in Italy and spreading to the rest of Europe by the 16th century, the Renaissance's influences were felt in art, architecture, philosophy, literature, music, science and technology, politics, religion, and other aspects of intellectual inquiry. Renaissance scholars employed the humanist method in their research and sought human emotion and realism in art.

Keywords: Renaissance, realism, human

Əşyaların yaradılması əvvəlcə kağız üzərində layihə şəklində başlanır, sonra isə bu layihələr əsasında materialda icra edilirdi. Leon Batista Alberti (1404–1472) “Memarlıq haqqında” traktatında intibah dövrünün estetik prinsiplərini müəyyənləşdirmişdir — gözəllik və faydanın sintezi barəsin də fikir və ideyanı ön plana çıxarmışdı. Onun əsərinin əsas ideyası və hər bir yaradılan obyektə əsas tələbi — faydalılığın gözəlliyi dərk etməsi və gözəlliyin faydanı mənəvi cəhətdən zənginləşdirməsidir. XVI əsrin ikinci yarısının estetikası əsər də yaradıcı ideyanın onun bədii təcəssümü ilə qarşılaşdırıl ması ideyası ilə səciyyələnir. Bu dövrdə əsərlərin qeyri-adi liyi, yaradıcı fantaziya və azadlığın rolu xüsusilə vurğulanır, sənətkarlıq icrasının bədii xüsusiyyətləri diqqət mərkəzinə çəkilir. Ornament. Renessans sənətinə xas olan fərdiyyətçilik ornamentlərdə özünü xüsusi şəkildə göstərir və Romaya aid dekorun fərdi başlanğıcını gücləndirməklə ifadə olunur. Nəticədə, ornament tamamilə müstəqil bir xarakter alır, öz da xilində məntiqi qanunauyğunluqlarla əlaqəli elementlərin qar şılıqlı təsirinə malik mənalı bir sistemə çevrilir. Bu müstəqil lik, ornamentlərin konkret həllər və motivlər baxımından bö yük müxtəlifliyə sahib olmasını təmin edir. Renessans ornamentləri canlı, realist və rəng baxımından zəngindir, təsviri sənətin təsiri altında formalaşır. Kompozisi yalar isə əsasən sakit, tarazlaşdırılmış üfüqi və şaquli motiv lərdən, həmçinin yarımdairəvi elementlərdən ibarətdir. Məz mun baxımından, Renessans ornamentləri üç əsas komponenti - Roma, Ərəb-Müsəlman və Qotik üslubu birləşdirir və onları yenidən mənalandırır; bu

komponentlərdən Roma ən əsas və üslubi olaraq dominant olanıdır.

Renessans dövrünün ən xarakterik dekor tipi "qrotesk" adlanır. Bu termin "qrot" (mağara) sözündən götürülüb, çünki sənətkarlar qədim Romalıların sənətini öyrənərkən bu üslubu yaradıblar. Rəsm sənətinin təsiri aydın görünür: simmetrik və dəqiq quruluşuna baxmayaraq, fərdi elementlərin icrası oriji nal fərdiyyətçilik göstərir. Ornamentdə Renessans mədəniyyətinin əxlaqi vəziyyəti ni əks etdirən xüsusiyyətlər də nəzərə çarpır. Erotik motivlər və Renessansın "böyük" sənətinə xas olan xüsusiyyətlər də bəzən bu ornamentlərdə öz əksini tapır. Eyni zamanda, Ərəb Müsəlman sənətinin, xüsusən də Renessansın son dövrlərində mədəniyyətə təsiri nəzərə çarpır. Bu təsir, antik ənənələrin zəifləməyə başladığı dövrdə daha da hiss olunur: dekor daha mürəkkəb və zəngin bir xarakter alır. Tez-tez bu zənginlik, sərbəst fonun arabesk motivlərlə doldurulması ilə əldə edilir ki, bu da ornamentə "xalça" görünüşü verir. Renessans dövründə İtaliya məişətində estetikaya böyük önəm verilərək, sadə əşyaların belə gözəl formada təqdim edilməsi əsas məqsədlərdən biri idi. Bu dövrdə keramik məmulatlar, o cümlədən müxtəlif formalı dərman qabları, açıq bufetlərdə və saraylarda nümayiş etdirilən iri boşqablar və lövhələr geniş istifadə edilirdi. Bu məhsullar İtaliyanın müx təlif şəhərlərində — Florensiya,

Siena, Kastel-Durante, De ruta, Gubbio və Urbino kimi yerlərdə istehsal olunurdu.

PREDİKAT VƏ TƏKLİF MƏNTİQİ

Almaszadə Gülsüm Siyavuş qızı

ADPU-nun nəzdində ADPK-nin müəllimi

Özet

Açar sözlər: məntiq**,** Predikat məntiqi**,** Təklif məntiqi

Predikat məntiqi , birinci dərəcəli məntiq və ya kəmiyyət məntiqi müddəaların predikatlar, dəyişənlər və kəmiyyət göstəriciləri ilə ifadə olunduğu formal dildir. Kəmiyyət göstəriciləri olmayan təklif məntiqindən fərqlidir. Bu, həqiqət dəyərləri, məntiqi bağlayıcılar və s. anlayışların hələ də tətbiq olunduğu, lakin təklif hərflərinin (əvvəllər atom elementləri olan) predikatlar və kəmiyyət təyinatlarını əhatə edən daha yeni təklif anlayışı ilə əvəz ediləcəyi təklif məntiqinin uzantısı kimi nəzərdən keçirilməlidir . Yəni, bir və ya bir neçə məchul daxil olan və məchulların konkret qiymətlərində mülahizəyə çevirən cümlələrə “predikat” deyilir. Predikat [preadicatum] latın sözü olub,

1) xəbər,

2) obyekt haqqında söylənən fikirdə məntiqi xəbər mənasını verir.

Predikatlar məntiqi, məntiqin ənənəvi formasında olduğu kimi elementar mülahizələri subyekt (cümlələrdəki mübtəda, bəzən isə tamamlıq rolu oynaya bilir) və predikat (cümlələrdəki xəbər, bəzən də təyin rolunu oynaya bilər) kimi hissələrə ayırır. Mülahizədə onun haqqında nə isə təsdiqlənirsə, o subyektdir; predikat isə odur ki, o fakt subyekt haqqında təsdiqlənir.

Təklif məntiqi isə adından da göründüyü kimi, təklif məntiqi riyazi məntiqin bütövlükdə götürülən və məntiqi bağlayıcılar vasitəsilə bağlanan müddəalar (və ya müddəalar, cümlələr, təsdiqlər) arasındakı məntiqi əlaqələri öyrənən bir sahəsidir . Təklif məntiqi həmçinin cümlə məntiqi , təklif hesablaması və cümlə hesablama adları ilə də tanınır . O, müxtəlif sahələrdə faydalıdır. Təklif məntiqində müddəa (və ya təklif) simvol (və ya hərf) ilə təmsil olunur, onun digər müddəalarla əlaqəsi bir sıra simvollar (və ya bağlayıcılar) vasitəsilə müəyyən edilir. İfadə doğru və ya yalan olan həqiqət dəyəri ilə təsvir olunur .Hər iki məntiqi müqaisə etsək qeyd edə bilərik ki, predikat məntiqi təklif məntiqindən o mənada üstündür ki, o, bir neçə arqumentin strukturunu formal mənada tuta bilir ki, bunu təklif məntiqi bacarmır.

Bir arqumentli, iki arqumentli və ya ümumiyyətlə predikatlarnn*arqumentlər müvafiq olaraq monoadik , ikili* və ya *n-adik* olaraq adlandırılır. Təklif məntiqində müddəalar arasındakı əlaqələr bağlayıcılarla təmsil olunur . Təklifin və ya bağlayıcının mənasını aydınlaşdırmaq üçün həqiqət cədvəlindən istifadə olunur. Həqiqət cədvəlləri təkliflərin həqiqət dəyərlərinin vizuallaşdırılması üsuludur. Doğru dəyəri " 1 " ilə, yalan dəyəri isə " 0 " ilə təmsil olunur. Bağlayıcılar təkliflər arasındakı əlaqəni ifadə edən məntiqi simvollardır.Beş əsas bağlayıcı var:

- İnkar
- Bağlayıcı
- Ayrılma
- Şərti

- Bişərtli

Predikat məntiqində digər ən mühüm anlayış kəmiyyət ifadələri anlayışıdır , ona görə də biz onu kəmiyyət məntiqi adlandırırıq . Miqdarlar bizə bütün obyektlər dəstlərini, bəzilərini əhatə edən təklifləri ifadə etmək, onları sadalamaq və s.

Yekun olaraq qeyd edə bilərik ki, Kəmiyyət göstəriciləri təkliflər yaratmaq üçün birlikdə birləşdirilə bilən ən önəmli məntiq üsuludur.

ANALYSIS OF MOLLA ABBAS SURAT IN THE NOVELS OF ISMAYIL GASPIRALI

İSMAYIL QASPİRALININ ROMANLARINDA MOLLA ABBAS SURƏTİNİN TƏHLİLİ

Prof. Dr. Elman Guliyev

Azerbaycan, Bakü Azerbaycan Dövlet Pedagoji Üniversitesi ,Türkoloji merkezin Türk edebiyatı bölümünün başkanı,Orcid: 0000-0001-5413-9479

Özet

İsmayıl Qaspiralı Avropa və Afrika ölkələrini səyahət edən eyni birqəhrəmanın macəraları əsasında silsilə romanlar yazmış, bunları "Tərcüman" qəzetində çap etdirmişdir. "Firəngistan məktubları", "Darürra-hat müsəlmanları", "Sudan məktubları", "Qadınlar ölkəsi" və "Molla Abbas Franseviyə təsadüf[1]: Gül Baba ziyarəti" əsərləri eyni qəhrəmanın Molla Abbasın iştirak etdiyi müxtəlif romanlar silsiləsidir. Silsiləyədaxil olan ilk əsər "Firəngistan məktubları"dır. Roman 1887-1889-cu illərdə "Tərcüman" qəzetində "Molla Abbas" imzasıyla dərc edilmiş, az vaxt keçmədən ayrıca kitab halında çap olunmuşdur.

Anahtar kelimeler: İ.Qaspiralı, Molla Abbas, roman, kitab, silsilə

Summary

Ismayil Gaspirali wrote a series of novels based on the adventures of the same hero who traveled through European and African countries, and published them in "Tarjuman" newspaper. "Letters of Farangistan", "Darurrahat Muslims", "Letters of Sudan", "Country of Women" and "Molla Abbas Franseviyya zasad1: Gul Baba's visit" are different series of novels by the same hero, with the participation of Molla Abbas. The first work included in the series is "Letters of Farangistan". The novel was published in Tarjuman newspaper in 1887-1889 under the signature of "Molla Abbas", and soon after it was published as a separate book.

Key words: I. Gaspiralı, Molla Abbas, novel, book, series

GİRİŞ

İsmayıl Qaspiralının bütün ictimai-siyasi, ədəbi-bədii fəaliyyəti birkonsepsiya olaraq millətinin taleyi ilə bağlanmış, mənsub olduğu millətin gələcəyi ilə bağlı "nə etməli" sualına cavab tapmaqda əhəmiyyətli rol oynamışdır. 63 illik mənalı ömrünün 33 ilini türk-islam dünyası- nın vacib problemlərinin həllinə həsr edən, "dildə, fikirdə, işdə birlik" ideyasının reallaşmasına var gücü ilə çalışan İsmayıl Qaspiralının bədii-publisistik yaradıcılığının və ictimai fəaliyyətinin ana xəttində milliidealların təbliği və tətbiqi dayanır.

İsmayıl Qaspiralı yaradıcılığının şah əsəri olan "Tərcüman" mənsub olduğu türk xalqının ictimai-siyasi və mədəni həyatında dirçəliş rolunu oynamaqla yanaşı, görkəmli şəxsiyyətin irəli sürdüyü "dildə, fikirdə, işdə birlik" ideyalarının reallaşmasında güclü təsir vasitəsinə çevrilmişdir. Böyük ideyalar carçısı İ.Qaspiralı mütərəqqi fikirlərin həyata keçməsində, heç şübhəsiz, bədii ədəbiyyat və publisistikanıdaha əhəmiyyətli hesab edirdi. İ.Qaspiralıya görə hər bir milləti millət kimi tanıtmaqda din və ədəbiyyatın rolu əvəz- olunmazdır. Bu mənada İ.Qaspiralının ədəbiyyatsız xalqları "vəhşi tayfa" adlandırması təsadüfi görünmür. "O, belə hesab edirdi ki, bədii əsər hər şeydən əvvəl geniş xalq kütləsinin arzu və istəklərinin ifadəçisi

və düşüncələrinin tərcüma-nı olmalıdır" (Xeyrulla Məmmədov).

İsmayıl Qaspiralı türk dünyasının böyük şəxsiyyəti, ideoloqu olmaqla yanaşı, ilk növbədə nasir və publisist kimi məşhurdur.Onun yaradıcılığında roman və hekayələri mühüm yer tutur.

İsmayıl Qaspiralı Avropa və Afrika ölkələrini səyahət edən eyni birqəhrəmanın macəraları əsasında silsilə romanlar yazmış, bunları "Tər- cüman" qəzetində çap etdirmişdir. "Firəngistan məktubları", "Darürra-hat müsəlmanları", "Sudan məktubları", "Qadınlar ölkəsi" və "Molla Abbas Franseviyə təsadüf[1]: Gül Baba ziyarəti" əsərləri eyni qəhrəma- nın Molla Abbasın iştirak etdiyi müxtəlif romanlar silsiləsidir. Silsiləyədaxil olan ilk əsər "Firəngistan məktubları"dır. Roman 1887-1889-cu illərdə "Tərcüman" qəzetində "Molla Abbas" imzasıyla dərc edilmiş, az vaxt keçmədən ayrıca kitab halında çap olunmuşdur. Qeyd etdiyimiz kimi "Firəngistan məktubları" əsərinin baş qəhrəmanı Daşkəndli Molla Abbasdır. Onun vətənindən Fransaya gəlməsi, oradan İspaniyayagetməsi, başına gələn əhvalatları hekayə etməsi əsərin məzmununu təşkil edir. Əsərdəki hadisələr bilavasitə Molla Abbasın dili ilə nəql olunur. Əsərin əvvəlində Molla Abbas özü və səfərinin məqsədi haqqında belə məlumat verir: "Daşkənddən səfərə çıxanda iyirmi iki yaşında idim.Atamdan qalmış mal və sərvətlə nə qədər

dolaşsam da yetərli idi. Özümharda, vətən və yurd orda olacaq kimi tək başına bir gənc idim. Səyahət, elm və bilik üçün nə qədər uzaqlarda olsam da ardımca baxıb qalacaq yox idi. Orenburqdan keçib Moskvaya gəldim. Burada gördüklərim və Ka-zanlı tanışlarımdan anladığım məlumata görə Firəngistan qayət könlümədüşdü, bu ölkələri görməyə həvəs etdim. Bir də ki, əski kitabda Avropada zamani ərəb və türkdən qalmış əzizlər və ziyarətlər olduğunu bilib, bunları ziyarət etməyə murad etdim. Bu halda Ades (Odessa) şəhərinə gəldim". Molla Abbasın səfər zamanı məqsədinə uyğun olaraq Macarıs- tanda "Gül Baba" (Macarıstanda XVI əsrdə Osmanlı türklərindən qal- mış bir bəktaşi şeyxinin türbəsi), Fransada "Qırx əzizlər" adlı (732-ci ildə İslam ordusunun Fransadan geri çəkilərkən şəhid olmuş əsgərləri üçüntikilmiş məqbərə. Hazırda onun mövcud olub-olmaması məlum deyil.)müqəddəs ocaqları ziyarət etməsi barədə əsərdə məlumat verilir. Roman-da Molla Abbasın Odessada teatr tamaşasına baxarkən firəng qızı Jozefin ilə tanışlığı və ondan Fransa haqqında məlumatlar alması bilavasitə başqəhrəmanda hələ Avropanı görmədən Avropa təəssüratlarının yaranmasına, onun Avropaya olan meylinin artmasına böyük təsir göstərir. Molla Abbasda şərq yox, Avropa marağının güclənmə səbəbi də əsərdə bu tanışlıqla əlaqələndirilir: "Bir həftə keçdi. Bu günləri həp firəng qızı ilə keçirdim. Firənglər və Firəngistan haqqında mənə məlum etdiyi əhvalatlara görə firəng qövminin diqqətəlayiq və təəccüblü olduğuna şübhəm qalmadı. Belə ki, Jozefinlə tanış-biliş olunca islam ölkələrini ziyarət etməzdən əvvəl yabançı ölkələri gəzib, görüb, anlamağa qayət həvəsli oldum".Göründüyü kimi, Molla Abbasın bir tərəfdən kazanlı tanışlarından, digər tərəfdən də firəng qızından Avropa haqqında eşitdikləri onun bu diyaragetmək həvəsini nəinki artırmış, eyni zamanda "firəngin diqqətəlayiq vətəəccüblü" cəhətlərinə meylini gücləndirmişdir.

Hadisələrin inkişafı zamanı biz Molla Abbasın Jozefinlə nigah

bağladığının şahidi oluruq. Molla Abbas dünyaya gələcək övladlarının müsəlman kimi tanınmasını vacib şərt hesab edir. Molla Abbasın bu fikrini müəllif əsərdə milli və islami məqsəd kimi dəyərləndirir. Lakin əsas məqsəd Molla Abbasın Avropaya doğru səyahəti zamanı keçdiyi ölkələrdə gördüyü hadisələr və onlara münasibətində açıqlanır.

YÖNTEM

Rusiya, Ukrayna, Polşa, Qalitsiya, Almaniya, Macarıstan torpaqların-dan keçərkən Molla Abbasın keçirdiyi hisslər, bu ölkələr haqqında onda yaranan təəssüratlar olduqca orijinal təsirə malikdir. Xüsusən alman vəmacar elm, təhsil, mədəniyyəti onda heyrət doğurur. Zəngin kitabxanala-rın, modern təhsil sisteminin olmasını müəllif qəhrəmanının dili ilə cəmiy-yətin inkişaf təməli kimi səciyyələndirir. İ.Qaspiralıya görə "elm, mərifət günəş işığı kimidir. Cümlə aləmə aydınlıq və qüvvət verir." Əslində bu fikirlərdə öz maarifçi görüşlərini əks etdirən İ.Qaspiralı xalqların tərəqqisi-ni elm və təhsildə görərək millətinin də bu yolu tutmasını arzulayır. Əsərdə Molla Abbasın Vyana şəhərində görkəmli türkoloq Vamberi ilə görüşü maraqlı tərzdə təqdim olunur. Müəllif Vamberinin Türküstanda tarixi abi- dələri tədqiq etmək marağının və ora gəlişinin bir səbəbini də məhz onun özünün və mənsub olduğu macar xalqının türk əsilli olması ilə bağlayır. Düzdür, əsərdə Vamberinin Türküstana getməsinin başqa bir səbəbi dəaçıqlanır: "Rəvayətə görə Vamberi dərviş qiyafəsinə girib Türküstanı dilkəşfi üçün dolaşmamış. Bu adamı bu tərəfə ingilis höküməti yollamışdır.Bu səyahət zamanı ruslar Ağməscid və Evliyata qalalarını alıb Kokand və Daşkənd tərəfə gəlməkdə imişlər. İngilislər qısqanclıq və daha ziyadəsi Hindistanda malik olduqları ölkələrdən qorxub Rusiyanın Türkistana irə- liləməsindən xoşlanmayıb Türküstan durumunu anlamaq istəmişlər. Birtürlü şübhə olmamaq üçün ingilis casusu yollamayıb, venqriyalı Vambe-rini yollamışlar. Vamberi İrandan, Xivədən keçib Buxaraya yetmişdir."Əsərdə səslənən bu fikirlərdə müəyyən tarixi faktların sadalanması ilə yanaşı, türk mənəvi-mədəni tarixinin qədimliyinin təsdiqi də dayanır. Birqədər əvvəldə adlarını sadaladığımız Avropa ölkələrində Molla Abbasın türk tarixi abidələrini axtarması, həmsöhbət olduğu şəxslərdən bu günkü qərb mədəniyyətinin əsasında dayanan bir sıra İslam mənəvi dəyərlərinin mövcudluğu ilə əlaqədar məlumatlar eşitməsi türk-müsəlman təsirinin təkcə Şərqə yox, həm də Qərbə nüfuzundan xəbər verir. Əsərdə Molla Abbas çox hadisələrlə üzləşir. O, Parisə gəldikdən sonra Jozefini boşayır. Müsyo Şalon adlı tanınmış bir şəxslə tanış olur. Onun qızı Marqaritayafars və türk dillərindən dərs keçir. Avropa mədəniyyəti, təhsil sistemi, əx-laq, ailə və məişət tərzi barədə bu şəxslərlə söhbətlərində Molla AbbasŞərqin nə qədər geri qaldığını açıq-aşkar duya bilir.

Molla Abbas Marqaritaya türk və fars dillərini öyrətdiyi kimi, özü də

fransız dilini öyrənmək üçün məktəbə gedir. O, Marqaritaya olan sevgihisslərini cilovlaya bilmir. Əslində onların məhəbbəti qarşılıqlı məhəbbət əsasında qurulur. Parisdə demək olar ki, 8 ay problemsiz yaşayan Molla Abbas bir yaşlı qadının qətlində günahlandırılıb həbs edilir. O, azadlıqda olarkən tez-tez elm, təhsil, mədəniyyət sahəsində Qərb ilə Türkista- nın fərqini müqayisə etdiyi kimi, həbsxanada da Avropa həbsxanalarının Şərq həbsxanalarından fərqləndiyini görür və bunun timsalında Fransaməhbəslərini cəza yeri yox, islah məktəbi kimi qiymətləndirir. Əslində, obrazın geniş müqayisələrində İ.Qaspiralı özünün islahatçılıq görüşlərini oxucuya təqdim edir. Molla Abbas 16 gün həbsxanada saxlanıldıqdan sonra məhkəməyə gətirilir. O, məhkəmədə qadının öldürülməsindən xəbərsiz olduğunu, nahaqdan tutulduğunu bildirsə də, heç bir fakt, dəlilgətirmədiyi üçün məhkəməni inandıra bilmir. Hətta onun vəkili də hüquq-larını qoruduğu insanı müdafiə etməkdə aciz qalır. Əsərlə tanışlıq zamanıgörürük ki, qətl törənən zaman Molla Abbas şəhərdən uzaqda yerləşən birməkanda Marqarita ilə gizli şəkildə görüşdə imiş. Molla Abbas bilirdi ki,əgər bu dəlili məhkəmənin nəzərinə çatdırsa, onu günahsız kimi buraxacaqlar. Lakin başa düşür ki, Marqarita ilə olan gizli görüşlərinin sirri açılsa təkcə bir qızın yox, həm də bir şərəfli ailənin namusuna ləkə yaxılacaq- dır. Necə deyərlər, öz başını qurtarmaqla başqa bir başı bəlaya salacaqdır.Məhkəmənin gedişi zamanı salona üzləri və başları tamamilə örtülmüş,sifətləri görünməz olan iki qadın daxil olur. Məlum olur ki, onların birişahid qismindədir. Digəri isə şahid olacaq qadının halı pis olduğundan onu məhkəmə binasma gətirməyə yardımçı olmuşdur. Şahid qadın adını,kimliyini məhkəməyə bildirmədən ifadə vermək istəyir. Çünki qadın bilir ki, kimliyi aşkar olsa ailə namuslarına xələl gələcək, günah sahibi kimi

qınaq obyektinə çevriləcəkdir. Lakin hakim ifadə verən şəxsin kimliyinin bilinməsinin vacibliyini tələb etdiyinə görə çarşablı qadın örtüyünü başın- dan götürərək Marqarita olduğunu söyləyir.

Yumor, satira, sarkazm cəmiyyətdəki mənfi halların tənqidinə yönəldilir. Obrazlar öz dili ilə ifşa olunur. Komediyaların səciyyəvi xüsusiyyətləri, yəni situasiyaları:

- Personajın danışığı ilə hərəkətləri arasında kəskin təzadın olması. Məsələn: qorxaq bir personajın qəhrəmanlığından danışması, tənbəl bir personajın işgüzarlıqdan dəm vurması, fiziki qüsurlu bir personajın sürətlə qaçmasından danışması, korun görməkdən danışması və s.
- Kinayə, rişxənd, ələsalma, zarafat komediyada bədii obrazın açılmasına xidmət edir.

Azərbaycan dramaturgiyasında Mirzə Fətəli Axundov komediyanın məktəbini yaradıb. Dramaturgiya sahəsində istifadə olunan terminlər:

- Adapte: xarici bir əsər, yer adları, şəxs adlarının tərcüməsi
- Aksessuar: teatr səhnəsindəki əşyalar.
- Antik teatr: Qədim Yunan-latın teatrı
- Qroteks: Gülünc, güldürücü deməkdir.
- Tragikomik: həm acı, həm gülünc hadisələrin üzərində qurulan əsərlərdir. Tragikomediyada hadisələr gülünc, amma hadisə qəhrəmanları acınacaqlı şəkildə verilir.

Aristotelə görə, faciə ciddi hadisələrin təqlididir. Fespidini yunanlar ilk dramatik şair adlandırmışlar, yəni dünya ədəbiyyatında ilk faciəni Fespidi yazıb. “ Fespidi qədim xalq oyunlarını ilk dəfə səyyar tamaşaya çevirən, aktyorları arabaya mindirib şəhərbəşəhər və kəndbəkənd gəzdirərək, camaata tamaşa göstərib xalqın hörmətini qazanan Fespidi olmuşdur. Fespid teatrı təsirli teatr idi, dövrün tələblərini ödəyirdi. Sonralar Xeril, Frinnix və Pratin onun ənənələrini davam etdirmişlər”. (Şəmsizadə Nizaməddin s.289) Daha sonra Esxil, Sofokl, Evripid faciə janrına müraciət edib.

Aristotel deyirdi ki, faciə insanı katarsis təmizlənməsinə kömək edir. Faciənin mövzusu baş qəhrəmanın idealıdır. Faciə qəhrəmanları özlərindən qat-qat güclü olan düşmənlərlə ideal naminə ölüm-dirim mübarizəsi aparır. Faciə qəhrəmanları məhv olsalar da, ideal uğrunda dəyişən bir şəxsiyyət kimi şüurlara həkk olunurlar.

Ədəbiyyat:

1.Xalid Əlimirzəyev, (2008) “Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları”, Bakı

2. Mir Cəlal, Pənah Xəlilov,(2005) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı, Çaşıoğlu

3. Məmməd Əliyev, (2000) “Ədəbiyyat nəzəriyyəsinin əsasları”, Bakı

9. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı

4.Nizaməddin Şəmsizadə, (2012) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

5. Rafiq Yusifoğlu, (2001) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı

6. Rəhim Əliyev, (2008) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

MƏRASİM NƏĞMƏLƏRİNDƏ MİLLİ DƏYƏRLƏR

Günel HÜMMƏTOVA (PƏNIYEVA) Saleh

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi,f.ü.f.dok
Orcid ID:0000-0002-8916-3484

Xülasə

Açar sözlər: nəğmələr, lirik növ, mərasim nəğmələri

Həyatı tərənnüm və təsvir yolu ilə əks etdirən lirik növün janrları, əsasən, aşağıdakılardır: nəğmələr (əmək nəğmələri: holavar, sayaçı sözləri; mövsüm nəğmələri; mərasim nəğmələri: toy və ya yas nəğmələri; məişət nəğmələri: layla, oxşama; qəhrəmanlıq nəğmələri), bayatılar, mahnılar.

Bu janrlara məxsus çoxlusayda nümunələrlə tanışlıq ümumləşdirilmiş fikir deməyə əsas verir. Nümunələrin hamısında böyük qəlb sahibi olan zəhmət adamının ürək çırpıntıları, gözəl arzuları, xeyirxah niyyətləri öz əksini tapmışdır. Bunlar milli-mənəvi dəyərlərimizə böyük önəm verən, həyatda müsbət nə varsa, onu uca tutan və layiqincə qiymətləndirən əmək insanının qəlbindən süzülüb gələn əbədiyaşar sənət nümunələridir. Bu nümunələrin heç birində şərin, pisliyin təbliği, eləcə də başqa bir xalqın mənlik, şərəf və ləyaqətinə toxunacaq kiçicik işarə belə yoxdur. Bu nümunələr xalqın milli-mənəvi dəyərlərini özündə ləyaqətlə yaşadır və əsrdən-əsə ötürür.

Fərqli məzmunda nəğmələrin yaranmasının səbəbləri var. Məsələn, birbaşa əmək prosesində ifa edilən əmək nəğmələrində ağır əl əməyini yüngülləşdirmək, müəyyən ahəngə uyğun icra etmək arzusu olmuşdur. Əlbəttə, ilk nümunələri sadə, hətta bəsit şəkildə olmuşdur. Zaman ona öz sığalını çəkmişdir. Məzmunca dolğunlaşmış, oynaq, oxunaqlı, ahəngdar bir şəkil almışdır.

Xalqımızın adət-ənənələrini, məişətindəki özəllikləri, etiqadlarını əks etdirən və yaşadan məişət mərasimlərinin də tarixi çox qədimdir. İnsanlar yas, dəfn, doğum, toy mərasimlərini əsrlər boyu yaşatmışdır. Bu mərasimlərdə müxtəlif məzmunda mahnılar oxunmuşdur. Məişət mərasimləri içində yas və toy mahnıları mühüm yer tutur. Yas mahnıları matəmlə bağlıdır. Mənbələr təsdiq edir ki, qədim türklər – azərbaycanlılar ölmüş insanla bağlı təşkil etdikləri yas mərasimində mahnılar ifa etmiş, dünyasını dəyişən haqqında xoş xatirələrini yada salmışlar. Bu mahnılar çox qədimlərdən ağı adlandırılmışdır. Ağılar təkcə sadə insanların deyil, adlı-sanlı adamların, sərkərdələrin və s. yas məclisində səsləndirilmişdir. Tanınmış yazıçı Ə.Haqverdiyev bu barədə yazır: "*Qədim Azərbaycanda ölən böyük qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayırdılar. Bu toplantıya "yuq" deyirdilər (yuq ağlamaq sözündəndir). Toplananlar üçün qonaqlıq düzələrdi, xüsusi dəvət edilmiş"yuqçular" isə ikisimli qopuz çalıb oynayardılar. Yuqçu əvvəlcə mərhum qəhrəmanın igidliklərindən danışıb, onu tərifləyirdi. Sonra isə qəmli havaya keçib şanlı qəhəman üçün ağı deyərdi. Toplananlar hönkür-hönkür ağlayardı."* [8, s. 392]

Ağılar məzmunca səmimi və təsirlidir. Doğmalarını, yaxın adamlarını itirənlərin dilindən səslənən ağılar emosional və təsirli olmaları ilə seçilmişlər:

“ Ağacda xəzəl ağlar,

Dibində gözəl ağlar,

Belə oğlu ölən ana

Sərkərdan gəzər ağlar.”

Yaxud:

“Can qardaş, canım qardaş,

Ağlayır canım qardaş.

Baş qoydum dizin üstə

Qoy çıxsın canlm, qardaş.”

Mərasimlərin içində toyla bağlı olanlar daha geniş yayılıb və məşhurlaşıb. Tarixən qədim olduğunu bütün tədqiqatçılar təsdiq edirlər. Azərbaycanın bütün bölgələrində keçirilən bu məişət mərasimi böyük coşqu, sevinclə müşayiət olunmuşdur. Hər ailə öz imkanı daxilində toyun dəbdəbəli keçməsinə çalışmışdır. Toy mərasimi çoxmərhələli olması ilə də fərqlənir: elçilik, nişanqoyma, xınayaxma, gəlinin gəlmsəi, ziyafət gecəsi və s. Bu mərhələlərin hər birin də özünəməxsus rəqsi, mahnısı vardır. Məsələn, aşağıdakı nümunələr elçilik mərhələsində səsləndirilmişdir:

“ Quda, evin var olsun,

Dörd yanı divar olsun,

Qızınzı istəyirik

Qoy ucuz bazar olsun.”

Yaxud:

“*Quda, gəlmişik biz sizə,*

Hörmət ediniz bizə,

Bu gecə qız sizdədir

Sabah aparrıq bizə.”

Toy mahnılarının içində həm sayca, həm də keyfiyyətcə daha çox fərqlənən gəlin haqqında olanlardır. Gəlin haqqında oxunan mahnılarda ona xüsusi dəyər verilir. Evin bütün müşkül işlərində ondan böyük töhfə gözlənilir. O, ana, sədaqətli ömür-gün yoldaşı kimi səciyyələndirilir.

“Dur ayağa qız gəlin,

Tellərini düz, gəlin.

Toyxana səni gözlər

Düş ortaya süz, gəlin.

Gəlin, bəxtin mübarək,

Gəlin taxtın mübarək.”

Məişət nəğmələri olan laylalar, oxşamalar folklorun geniş yayılmış janrlarıdır. Layla və oxşamalar daha çox ananın dilindən səsləndirilir. Körpəsinə sonsuz məhəbbətini ifadə edən ana onun gələcəyi haqqındakı arzu və istəklərini də dilə gətirir.

“Laylay dedim, yatasan,

Qızılgülə batasan.

Qızılgülün içində

Şirin yuxu tapasan.

Balam, layla, a layla,

Körpəm, layla, a layla.”

Oxşamalar məzmunca laylalara oxşasa da, onları eyniləşdirmək olmaz. Oxşamalarda körpəsini əyləndirən, əzizləyib-oynadan ananın səmimi hissləri əksini tapıb.

“ Balama qurban inəklər,

Balam haçan iməklər.”

Yaxud:

“ Tüstüsüz damlar,

Sarı badamlar,

Tənbəl adamlar,

Bu balama qurban.”

RESEARCH ISSUES OF THE MAGAZINES “MOLLA NASREDDIN” AND “FUYUZAT”

“MOLLA NƏSRƏDDİN” VƏ “FÜYUZAT” JURNALLARININ TƏDQIQI MƏSƏLƏLƏRI

Dr. Ülker Bahşiyeva

ADPU-nun Filoloji fakültesinin,Edebiyatın tedrisi teknolojisi

ORCID İD 0000-0002-5994-2356

Özet

M.İbrahimov “Molla Nəsrəddin” ilə “Füyuzat”ı bir-birinə zidd qütb kimi təqdim edərkən ilk növbədə dil məsələsini önə çəkir. O, “Füyuzat” jurnalının dil siyasətində farsçılıq-ərəbçilik və osmanlıçılığa xidmət göstərən iki meylin olduğunu qeyd edir.Bildiyimiz kimi, “Molla Nəsrəddin”in dili ilə “Füyuzat”ın dili arasında böyük fərq olmuşdur. Birincilər sadə, ikincilər isə daha elmi və qarışıq tərkibli (ərəb, fars və əski türk dili) dildə yazmağa üstünlük verirdilər. Lakin hər iki jurnal amalı baxımında eyni hədəfə tuşlanmış iki ox idi.Yəni hər iki jurnal milli məfkurənin inkişafına, milli tərəqqiyə xidmət edirdi. Akademik M.İbrahimov araşdırmalarında bu məsələlərə ətraflı şəkildə yer ayırmışdır.

Açar sözlər: M.İbrahimov,M.Nəsrəddin, Füyuzat, dil,milli

Summary

When M. Ibrahimov presents "Molla Nasreddin" and "Fyuuzat" as polar opposites, he first of all highlights the issue of language. He notes that there are two tendencies in the language policy of "Fyuuzat" magazine that serve Persianism-Arabism and Ottomanism. As we know, there was a big difference between the language of "Molla Nasreddin" and the language of "Fyuzat". The former preferred to write in a simple language, while the latter preferred to write in a more scientific and mixed language (Arabic, Persian and Old Turkish). However, both magazines were two arrows aimed at the same target. That is, both magazines served the development of national ideology and national progress. Academician M.Ibrahimov has devoted a detailed space to these issues in his studies.

Key words: M. Ibrahimov, M. Nasreddin, Fyuzat, language, nationality

GİRİŞ

M.İbrahimovun “Böyük demokrat” əsərinin dördüncü bölümündə “Molla Nəsrəddin” jurnalının nəşri, ictimai-siyasi vəziyyət, “Molla Nəsrəddin” jurnalının milli-ictimai təsir dairəsi, C.Məmmədquluzadənin jurnaldakı ədəbi-ictimai fəaliyyəti və s. məsələlər özünə yer alır. M.İbrahimov jurnalın dərc olunması ilə əlaqədar C.Məmmədquluzadənin gördüyü işlər, dövlət orqanlarına müraciəti, müxtəlif çətinliklərlə üzləşdiyi və s. barədə məlumatlar verir. Bu barədə Ə.Şərifin (1), İsa Həbibbəylinin (5), Mir Cəlalın, F.Hüseynovun (2) və digər ədəbiyyatşünasların fikirləri ilə M.İbrahimovun mülahizələri üst-üstə düşdüyündən təhlilə ehtiyac duymuruq.

M.İbrahimov C.Məmmədquluzadə və “Molla Nəsrəddin”lə bağlı təhlillərində demək olar ki, Mirzə Cəlilin sənət idealını, yaradıcılıq xüsusiyyətlərini və jurnalın məqsəd və vəzifələrini

açıqlamağa çalışır. M.İbrahimov göstərir ki, C.Məmmədquluzadənin yaradıcılığının və "Molla Nəsrəddin" jurnalının məqsədi "ictimai intibaha" xidmət idi. M.İbrahimov C.Məmmədquluzadənin dil-ifadə formasını xalqa xidmət və rəğbət hesab edirdi. Tədqiqatçı alimə görə sadə xalqa sadə dildə – xalq dilində daha çox xidmət göstərmək mümkündür.

YÖNTEM

M.İbrahimov təhlil prosesində dövrün tələblərinə uyğun olaraq burjua-feodal həyatının yaramazlığı, proletar inqilabı ideyaları, proletar beynəlmiləlçiliyi və s. ifadələr işlədir. Ancaq bunlar əsl mahiyyətin üzə çıxmasına mane olmur. Təhlillərdə biz M.İbrahimovun C.Məmmədquluzadə sənətinə "Molla Nəsrəddin" jurnalı ilə bağlı sırf estetik yanaşmanın şahidi oluruq. Bu sırada milliliyin öndə dayanması diqqətdən yayınmır. "Molla Nəsrəddin" "millət, millət" deyən yalançı boşboğazları müalicə yolunu göstərməyən həkimə bənzədirdi. Bu fikri əsas götürən M.İbrahimov qeyd edirdi ki, belə halda millətin yeganə çarəsi dərdlərə çarə tapa bilməyən həkimlərdən uzaqlaşmaqdır. M.İbrahimov jurnalın bu mövqeyini düzgün hesab edir və göstərir ki, xalq onu aldadanlarla yox, ona ürək qızdıranlarla həmrəy olmalıdır. Bu vəziyyətdə C.Məmmədquluzadənin tənqidi realist mövqeyi üzə çıxır, yaradıcılığının qayəsi açıqlanırdı. M.İbrahimovun məqsədi də onun yaradıcılıq hədəflərini müəyyənləşdirmək və sənətinin ideya istiqamətini üzə çıxarmaqdır.

Qadın azadlığı məsələsində də M.İbrahimov böyük ədibin mövqeyini düzgün müəyyənləşdirə bilir. M.İbrahimov "Molla Nəsrəddin" jurnalının Azərbaycan ədəbi-ictimai tarixindəki rolunu da düzgün dəyərləndirə bilmişdir. "Keçmiş Azərbaycanda "Molla Nəsrəddin" kimi xalqa, xalq ədəbiyyatı və varlığına əsaslanan, bütün xalqla yaşayan bir jurnal göstərmək çətindir. "Molla Nəsrəddin" inqilabi demokratizmin ifadəçisi və mərkəzi idi. "Molla Nəsrəddin" XX əsr Azərbaycan ədəbiyyatında böyük mütərəqqi-realist bir məktəb yaratmışdı. Azərbaycan xalqının iftixarı və Azərbaycan satirik şeirinin həqiqi və ölməz yaradıcısı olan Sabir ancaq və ancaq "Molla Nəsrəddin" məktəbində tərbiyə alaraq yetişmişdir... "Molla Nəsrəddin" bizim inkişaf tariximizdə, xalqımızın ictimai həyatında çox mühüm və iftixara layiq bir hadisədir" (7, 121).

BULGULAR

"Böyük demokrat" monoqrafiyasının "İki üslubun mübarizəsi" adlı beşinci bölümü "Molla Nəsrəddin" və "Füyuzat" jurnallarının dəyərləndirilməsi baxımından xarakterikdir. Burada iki müxtəlif jurnala iki müxtəlif baxış diqqəti cəlb edir. Sovet ideoloji tələblərinə uyğun olaraq "Molla Nəsrəddin" demokratik, xalq ruhunu ifadə edən, böyük hörmət və məhəbbət qazanan, milli-mənəvi tariximizdə yeri olan və s. jurnal kimi yüksək dəyərləndirilir. Qeyd edək ki, M.İbrahimov 1981-ci ildə yazdığı "Həyatın güzgüsü" adlı məqaləsində də "Molla Nəsrəddin" jurnalı və "Molla Nəsrəddin" ədəbi cərəyanını ideya-fikir istiqaməti, stil və bədii forması baxımından Azərbaycan mətbuatı və Azərbaycan ədəbiyyatı tarixində tamamilə yeni mərhələ kimi dəyərləndirirdi. "Füyuzat" isə əksinə olaraq pantürkist, xalq ruhunun əleyhinə və s. şəklində tənqid olunur. Nəzərə alsaq ki, hər iki jurnal Azərbaycan xalqının ruhunu ifadə edir və milli məqsəddən ötrü eyni hədəfə tuşlanmış iki ox idi, onda tədqiqat zamanı "Füyuzat" ünvanına deyilən bu fikirlərin nə qədər qeyri-obyektiv olduğunu anlamaq çətin olmaz. Amma bu təhlillərdə milli müstəqillik dövrünün tələblərinə uyğun olmayan cəhətləri heç şübhəsiz sovet ideoloji tələblərinin adına yazmaq lazımdır. Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi təəssüf ki, son illərədək mövcud cəmiyyətin ictimai-siyasi tələbləri əsas götürülərək, reallığı çox da əks etdirmədiyi halda, "Molla Nəsrəddin" və "Füyuzat", hətta C.Məmmədquluzadə və Ə.Hüseynzadə süni şəkildə bir-birinə qarşı qoyulmuş, əks cəbhələri təmsil edən ədəbi qüvvələr kimi təqdim edilmişdir. Bu məqamda C.Məmmədquluzadənin ədəbi mühitdə qəbul olunmuş realizm ədəbi cərəyanının, Ə.Hüseynzadənin isə 20-30 il əvvəlki ifadələrlə desək, "mürtəce romantizmi" təmsil etmələri, "Molla Nəsrəddin"in inqilabi-demokratik platformadan,

“Füyuzat”ın isə guya pantürkist və panislamçı mövqedən söz açması barədəki təsəvvürlər mühüm faktora çevrilmişdir” (5, 272). Buna görə də hər iki jurnalın mövqeyi, onların redaktorları arasındakı münasibətlər, toxunduqları problemlər və məsələlər uzun müddət müzakirə obyekti olmuşdur. Prof.Yaşar Qarayev haqlı olaraq yazırdı: “Füyuzat” və “Molla Nəsrəddin” tarixin konkret gerçəkliyində cəmi iki il mübarizə aparmışlar. Vulqar sosioloqlar isə onları ədəbiyyatşünaslıqda yetmiş iki il vuruşdurmuşlar”(1, 96). Bu səbəbdən C.Məmmədquluzadənin həyat və yaradıcılığına həsr edilmiş əksər monoqrafiyalarda, dərsliklərdə və s. məqalələrdə bu səpkili yazılara, məlum ideoloji tələblərdən irəli gələn yanaşmalara rast gəlmək mümkündür. M.İbrahimov “İki üslubun mübarizəsi” bölümündə ilk növbədə C.Məmmədquluzadənin ədəbi qüdrətini diqqətə çatdırmaq istəyir. Bu məqsədlə o, “Molla Nəsrəddin”in Yaxın və Orta Şərqdəki mövqeyini əks etdirən fikirlərini ortaya qoyur. Daha sonra C.Məmmədquluzadə peşəkar jurnalist, mühərrir kimi təqdim edilir. Bundan sonra isə onun jurnalistik fəaliyyəti ilə yazıçılıq fəaliyyətinin birliyi məsələsinə toxunulur. Sadaladığımız cəhətlər təhlil prosesində olduqca az yer tutur. Əsas yeri isə “Molla Nəsrəddin” və “Füyuzat” jurnalları ilə bağlı müqayisəli təhlillər tutur. Onu da qeyd edək ki, M.İbrahimov tənqid obyekti kimi təkcə “Füyuzat”ı deyil, “Həyat” və “Şəlalə” kimi mətbu orqanlarını da hədəf seçir. “Molla Nəsrəddin”in sağlam, tənqidi realist üslubu adları çəkilən orqanların üslubundan həm üstün tutulur, həm də onlara qarşı əks arqument kimi istifadə olunur.

M.İbrahimov “Molla Nəsrəddin” ilə “Füyuzat”ı bir-birinə zidd qütb kimi təqdim edərkən ilk növbədə dil məsələsini önə çəkir. O, “Füyuzat” jurnalının dil siyasətində farsçılıq-ərəbçilik və osmanlıçılığa xidmət göstərən iki meylin olduğunu qeyd edir. Hər iki meyldə Azərbaycan dilinin məhv edilmə siyasətinin, onun inkişafına mane olmaq istəyinin dayandığını qeyd edir. M.İbrahimovun bu fikirlərini dərindən təhlil etdikdə bəzi məqamlar üzə çıxır. Bildiyimiz kimi, “Molla Nəsrəddin”in dili ilə “Füyuzat”ın dili arasında böyük fərq olmuşdur. Birincilər sadə, ikincilər isə daha elmi və qarışıq tərkibli (ərəb, fars və əski türk dili) dildə yazmağa üstünlük verirdilər. Ə.Hüseynzadə “Füyuzat” jurnalının 1 noyabr 1906-cı il tarixli 1-ci sayında sadə türk dilini “lisani-əvam”, 1907-ci il tarixli 21-ci sayında isə “çoban və əkinçi lisanı” adlandırmışdı. Əlbəttə, bu ifadə və yanaşma Ə.Hüseynzadənin doğma dilə ögey münasibətindən və sovet dönəmində deyildiyi kimi “nifrətindən” irəli gəlməmişdi. Əli bəy Hüseynzadə C.Məmmədquluzadə qədər xalqını və dilini sevmiş, ona hörmətlə yanaşmışdır. Təbii olaraq bu yanaşmanın kökündə Əli bəy Hüseynzadənin uzun müddət Türkiyə ziyalılarının və Türkiyə mühitinin təsirində olması ilə bağlı idi. Bildiyimiz kimi, 1895-ci ildə Türkiyədə ömrünü başa vurmuş Tənzimat hərəkatı öz yerini “Sərvəti-fünun”a verdi. “Sərvəti-fünun”çular bir sıra məsələlərlə yanaşı dil siyasətini də ortaya atdılar. Bu təşkilat ətrafında birləşən və bu təşkilatın təsirində olan ziyalılar ərəb-fars və əski türk dillərindən geniş istifadəni daha estetik hesab edir və savad nümayiş etdirməyin əlaməti sayırdılar. Məhz Əli bəy Hüseynzadənin Türkiyə ziyalıları ilə sıx əlaqələri ona təsirsiz ötüşməmişdir. Düzdür, Əli bəy Hüseynzadənin dili təkcə C.Məmmədquluzadə tərəfindən deyil, dövrün mütərəqqi şəxsləri tərəfindən də tənqid edilirdi. Məsələn, F.Köçərli “Molla Nəsrəddin” jurnalının 1913-cü ildə çapdan çıxan 23-cü sayında Ə.Hüseynzadənin “dilimizə pozğunluq salmasına” etirazını bildirirdi. M.İbrahimov da Ə.Hüseynzadənin dilindəki ərəb-fars və osmanlıçılığın təzahürünü düzgün müəyyənləşdirsə də onu xəyanətdə günahlandırmaqda haqlı görünmürdü. Məsələ onda idi ki, Ə.Hüseynzadənin dilinin “aliliyi” yüksək zümrə üçün hesablanmış, o, millətin ziyalı təbəqəsi üçün yazmağı vacib saymışdır. Ə.Hüseynzadə belə fikirləşirdi ki, millətin indiki halında ona nicat ola biləcək qüvvə savadlı, elmli şəxslərdir. Digər baxımdan C.Məmmədquluzadənin və Ə.Hüseynzadənin ümumtürk ədəbi dil yaratmaq səyləri üst-üstə düşürdü. Əgər C.Məmmədquluzadə “əvvəl-axır türk kütləsi üçün ədəbi dil və ümumi imlaya çox böyük ehtiyac vardır” (1, 160) deyirdisə, Ə.Hüseynzadə də “biz öz müxtəlif şivə və ləhcələrimizi islah və tövhid ilə özümüzə məxsus və

ədəbi bir ümumtürk dil vücuda gətirə bilərik" (5) deyir. Göründüyü kimi buradakı fikirlər tam şəkildə üst-üstə düşür.

SONUÇ

M.İbrahimov "Molla Nəsrəddin"lə "Füyuzat" arasında "bizə hansı elmlər lazımdır?" sualı ətrafında gedən mübahisələrə də xüsusi diqqət ayırır. Bildiyimiz kimi, "Əkinçi" qəzetində irəli sürülən "Elmi-ədyan" və "Elmi-əbdan" məsələsi XX əsrin əvvəllərində yenidən müzakirə obyektinə çevrildi. Hacı Əbutürab Axundoğlu, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə və başqalarının bu müzakirələrdə aktiv olması, dini, yoxsa dünyəvi elmlərin gərəkliliyi barədə fikirləri diqqət çəkirdi. M.İbrahimov "Füyuzat"çıların bu sahədəki mövqeyini tənqid edir, onların dünyəvi elmlərlə yanaşı dini elmlərə də marağını qaragüruhçu mövqe hesab edirdi. "Mövhumatçı qaragüruhlar və mürtəce ziyalılar nəinki elmi dinlə birləşdirərək birincisini ikincisinə qurban edir, həm də dinin, mövhumatın ağla zidd ayinlərini belə müdafiəyə qalxışırdılar" (7, 130).

"Molla Nəsrəddin"ə gəldikdə isə M.İbrahimov onların bu müzakirələrdəki mövqeyini təqdir edir. "Molla Nəsrəddin" mövhumatı, onun bütün bünövrəsini yıxıb dağıdaraq mürtəce mollaları və dinin bütün rəsmi ayin və kahinlərini şiddətli satirik atəş altına alırkən, füyuzatçılar xalqı fanatizm əsarətinə verməyə, dini-mövhumi duyğuları daha da alışdırmağa can atırdılar" (7, 130).Təhlillərdə görünür ki, M.İbrahimov füyuzatçıların dinə önəm verməsini onların qaragüruhçu, mürtəce xisləti kimi xarakterizə edir. Əksinə, mollanəsrəddinçilərin "dinin bütün rəsmi ayinlərini" tənqid etməsini isə mütərəqqi hal kimi səciyyələndirir. Lakin mahiyyətə vardıqda görürük ki, problemə başqa tərəfdən yanaşmaq lazımdır. Burada akademik İsa Həbibbəylinin dediyi kimi, "onların dünyəvi elmləri öyrənməyə dair çağırışlarında da İslamın əleyhinə yox, dirçəliş və tərəqqi əsrinin xüsusiyyətlərini nəzərə almaları əsas götürülmüşdür" (5, 272).

Tədqiqatın bu hissəsində M.İbrahimov "Molla Nəsrəddin" jurnalının ədəbi, elmi, mədəni, milli, dini, iqtisadi, siyasi və s. sahələrdə irəli sürdüyü bütün fikirləri cəmiyyət üçün faydalı hesab edir. "Füyuzat"çıların mövqelərini isə siyasi-ideoloji tələblərə uyğun olaraq zərərli, qeyri-milli və mürtəce ideologiya kimi tənqid etmişdir.

KAYNAKLAR

1. İbrahimov M. Əsərləri, 10 cilddə, I cild, Bakı: Yazıçı, 1978, 512 s.
2. İbrahimov M. Əsərləri, 10 cilddə, II cild, Bakı: Yazıçı, 1978, 504 s.
3. İbrahimov M. Əsərləri, 10 cilddə, III cild, Bakı: Yazıçı, 1979, 592 s.
4. İbrahimov M. Əsərləri , 10 cilddə, IV cild, Bakı: Yazıçı, 1979, 596 s.
5. İbrahimov M. Əsərləri, 10 cilddə, V cild, Bakı: Yazıçı, 1980, 339 s.
6. İbrahimov M. Əsərləri, 10 cilddə, VI cild, Bakı: Yazıçı, 1981, 376 s.
7. İbrahimov M. Əsərləri, 10 cilddə, VII cild, Bakı: Yazıçı, 1981, 332 s.
8. İbrahimov M. Əsərləri, 10 cilddə, VIII cild, Bakı: Yazıçı, 1981, 303 s.
9. İbrahimov M. Əsərləri, 10 cilddə, IX cild, Bakı: Yazıçı, 1982, 664 s.
10. İbrahimov M. Əsərləri, 10 cilddə, X cild Bakı: Yazıçı, 1983, 507 s.
11. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, 552 s.

ARTISTIC STRUCTURE OF FADAI'S POEM "BAKHTIYARNAME", PHILOSOPHY OF FAITH, JUSTICE AND PATIENCE IN THE WORK

FƏDAİNİN "BƏXTİYARNAMƏ" POEMASININ BƏDİİ STURUKTURU, ƏSƏRDƏ QƏDƏRƏ İNAM, ƏDALƏT VƏ SƏBR FƏLSƏFƏSİ

BABAYEV YAQUB MƏHƏRRƏM OĞLU

Filologiya elmləri doktoru, Professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan,ORCİD: https://orcid.org/0000-0002-4738-9426

Xülasə

Fədai Təbrizi klassik Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biridir. O, ana dilində gözəl lirik şeirlər yazmaqla bərabər "Bəxtiyarnamə" adlı dəyərli bir poema da qələmə almışdır. Ana dilində məsnəvi formasında qələmə alınmış bu poema şərq ədəbiyyatında çox işlənən süjetlər silsiləsinə daxildir. Əsər maraqlı və orijinal bədii sturuktura malikdir. Poemanın ideya xətləri də rəngarəngdir. Bu xətlər içərisində qədərə inam, ədalət və səbr fəlsəfəsi də xüsusi yer tutur. Bu məqalədə biz göstərilən həmin məsələləri elmi şəkildə şərh etməyə çalışmışıq. Mətləbin aydın izahı üçün poemadakı bəzi konkret nağıllar üzərində dayanmağı lazım bilmişik.

Açar sözlər: Azərbaycan ədəbiyyatı, klassik poeziya, Fədai Təbrizi, "Bəxtiyarnamə", taleyə inam, səbr, ədalət

Summary

Fedai Tabrizi is one of the well-known representatives of classical Azerbaijani literature. Besides writing beautiful lyric poems in his native language, he also penned a valuable poem called "Bakhtiyarname". This poem, written in the native language, is included in the series of plots that are often used in Eastern literature. The work has an interesting and original artistic structure. The idea lines of the poem are also colorful. Within these lines, the philosophy of trust, justice and patience also occupies a special place. In this article, we have tried to interpret these issues in a scientific way. For a clear explanation of the topic, we found it necessary to focus on some specific tales in the poem.

Key words: Azerbaijani literature, classical poetry, Fedai Tabrizi, "Bakhtiyarname", faith in destiny, patience, justice

Giriş

Fədai Təbrizi XVI əsrdə yaşayıb yaratmışdır. O, **iki dildə – Azərbaycan və fars dillərində** əsərlər yazmışdır. Şair həm poeziyanın lirik, həm də epik növündə qələmini sınamış, rəngarəng janrlarda lirik şeirlərdən əlavə ana dilində «Bəxtiyarnamə» adlı poema da qələmə almışdır. Bu poema anadilli Azərbaycan epik şeirinin qiymətli və səviyyəli örnəklərindən biridir.

Poemanın bədii sturukturu

Süjet və kompozisiya baxımından «Bəxtiyarnamə» şərq bədii təfəkküründün populyar incilərindən olan «Sindibadnamə», «Min bir gecə», «Tutinamə», «Yeddi gözəl» (Nizami) və s. kimi möhtəşəm abidələrlə oxşarlıq təşkil edir. Kompozisiya – struktur bütövlükdə adı çəkilən əsərlərdə olduğu tərzdə «süjet içərisində əlavə süjetlər» prinsipinə əsaslanır. Həm də belə bir forma – struktur əsərin həcminə və ideya-məzmun siqlətinə ciddi, əsaslı şəkildə təsir göstərir.

«Bəxtiyarnamə»nin istər kompozisiya-struktur sistemində, istərsə də bədii semantikasında on rəqəminin əhəmiyyətli rolu vardır: 10 vəzir; Azadbəxtlə Gülcamal uşağın bələyinə 10 gövhər qoyurlar; 10 günə gəlib Kirmana çatırlar; baş qəhrəmanın söylədiyi 10 nağıl; nağılların söyləndiyi 10 gün; 1-ci nağılda 10 qəvvas və onların dəryadan çıxardıqları 10 dürr; Xacə Həsən bəzirganın 10 il evinə qayıda bilməməsi; Şirvan şahı oğlu Behzaddan onun sevdiyi qızla bağlı tədbir görməkdən ötrü 10 gün möhlət istəyir və s.

Yuxarıda adı çəkilən əsərlərdə olduğu kimi «Bəxtiyarnamə»də də süjet içərisində verilən süjetlər, yəni əlavə nağıl-əhvalatlar bütövlükdə əsas süjet xəttinin ümumi ahəngi və əsas ideya xətti ilə bu və ya digər dərəcədə bağlıdır, onu tamamlamağa və daha mükəmməl şəklə salmağa xidmət edir. Ancaq həmin əhvalatlar həm də müstəqil süjetə malikdir. Onları ayrıca, bitkin bir əsər-əhvalat kimi də qəbul etmək mümkündür. Müəllifin məharəti mətn daxilində verilən qısa süjetləri ümumi süjet xətti ilə ideya-semantik və məzmun-struktur cəhətdən uğurla sintez edə bilməsindədir.

Poema məsnəvi formasındadır. Əhvalat adi qaydada başlayır. Ancaq süjet getdikcə gərginləşir, dramatik və həyəcanlı xarakter alır. Oxucunu öz cazibəsinə salır. Göstərilir ki, Əcəm mülkündə Azadbəxt adlı məğrur və işrət düşkünü bir sultan, sultanın qoşun böyüyü, əmiri və əmirin Gülcamal adlı gözəl bir qızı vardır. Bir dəfə əmir kənar bir yerə istirahətə gedir. Bir müddət sonra qızı üçün darıxır. Onu öz yanına çağırtdırır. Gülcamal atasının yanına yola düşür. Ova çıxmış Azadbəxt təsadüfən onu görür, qıza vurulur. Onun kim olduğunu öyrənir. Əmirə elçi göndərmək barədə Karidan vəzirin məsləhətinə məhəl qoymur. Daha doğrusu, əmirə elçi göndərməyi qüruruna sığışdırmır. Qızı məcburən götürüb saraya aparır. Toy edib onunla evlənir. Bu hadisələr əsərin *ekspozisiyasını* təşkil edir. Sonradan bu əhvalatı eşidib ona hörmətsizlik etdiyinə görə sultana qəlbində gizli kin bəsləyən əmir bir müddətdən sonra, nəhayət, fürsət tapıb əyan-əşrəfi öz tərəfinə çəkə bilir. Başı eyş-işrətə qarışmış, dövlət işlərini unudan sultana qarşı üsyan qaldırır. Çarəsiz qalan sultan zövcəsi ilə birlikdə Kirmana qaçır. Bununla da hadisələr *düyünlənir* və süjetin *zavyazka* hissəsi gəlir. Bundan sonra *inkişaf xətti* başlayır və davam edir. Yolda, bulaq başında Gülcamalın oğlan uşağı dünyaya gəlir. Onlar çətinliyi nəzərə alaraq uşağı orada qoyub Kirmana gedirlər. Kirman şahının köməyi ilə Azadbəxt yenidən öz taxt-tacını geri qaytarır. Bulaq başında sahibsiz qalan körpəni Ziyad Hərami adlı bir quldurbaşı tapır. Övladı olmadığı səbəbindən onu oğulluğa götürür və böyüdür. Ona Xudadad adı qoyur. Cavan oğlan olarkən Xudadad müəyyən səbəblə əlaqəli Sultan Azadbəxtin sarayına gəlib düşür. Sultanın ondan xoşu gəlir, onu sarayda saxlayır və adını dəyişdirib Bəxtiyar qoyur. Tədricən Bəxtiyarın sarayda nüfuzu artır, xəzinədar vəzifəsinə qədər yüksəlir. Sultanın vəzirləri (10 vəzir) ona paxıllıq edir və Bəxtiyarı hökmdarın gözündən salmağa çalışırlar. Nəhayət, belə bir fürsət ələ düşür. Bir dəfə Bəxtiyar içib sərxoş olduğundan bilmədən sultanın yataq otağına gəlir və orada yatır. Vəzirlər bunu hökmdara xəyanət kimi qələmə verir və onun cəzalandırılmasını tələb edirlər. Qəzəblənən Azadbəxt Bəxtiyarı edam etdirmək istəyir. Lakin Bəxtiyar 10 gün ərzində hər gün ibrətamiz bir nağıl danışmaqla hökmü yubadır. Hər gün bir vəzir gələrək şahı hökmü icraya təhrik edir. Edam günü Bəxtiyar qətlgaha aparılarkən oğulluğu ilə görüşməyə gələn Ziyad Hərami vəziyyətdən xəbər tutur və həqiqəti açıb sultana danışır. Bu epizod süjetin *kulminasiyasını* təşkil edir. Bəxtiyarın onun öz doğma oğlu olduğunu bilən şah və Gülcamal sevinirlər. Qətl mərasimi şadlığa çevrilir. Beləliklə, əsər nikbin finalla yekunlaşır.

Poemada Bəxtiyarın dilindən 10 nağıl verilir. Nağıllar mövzu, məzmun və ideyaca bir-birindən maraqlı, düşündürücü və rəngarəngdir. Onların məzmun və qayəsində ciddi, ibrətamiz, cəmiyyət və insanlıqla bağlı həyat, yaşayış fəlsəfəsi vardır. Bunlar insanı iş görərkən öz əməlini, onun mahiyyət və nəticəsini düşünməyə çağırır. Onu öz əməlinə məsul və cavabdeh şəxs kimi

ağıla, düşüncəyə, idraka sövq edir. Gördüyün iş və əməlin aqibətini düşün! Bütün nağıllarda və əsərin məzmununda bu ahəng daim diqqət mərkəzindədir.

Poemada qədərə inam ideyası

Bəxtiyarın söylədiyi 1-ci nağılda – *«Tacirin macərası»*nda əsas mətləb bəxtə, taleyə inam fəlsəfəsidir. Burada biz acgöz, tamahkar, sərvət əsiri, xəsis bir tacirlə üzləşirik. Bəsrədə yaşayan bu varlı tacirin bütün var-dövləti əlindən çıxdıqdan, yenidən sərvət qazanmaq üçün göstərdiyi cəhd uğursuz nəticə verdikdən sonra o, varlanmaq ehtirası, arzusu ilə başqa məmləkətə üz tutur. Şair onu müxtəlif zümrəyə məxsus insanlarla görüşdürür. Əvvəl tacir halal zəhmət sahibi, insanpərvər bir bağbana rast gəlir. Ancaq tamahı ucbatından ona xəyanət etdiyinə görə qovulur. Sonra qəvvaslarla, daha sonra oğrularla rastlaşır. Cavanmərd bir insanla üzləşir. Nəhayət, sərrafla ünsiyyətdə olub onun böhtanına məruz qalır. Müxtəlif çətinliklərdən, hətta ölüm təhlükəsindən xilas olur. İlk dəfə səfərə çıxarkən o, gəmiyə minir. Gəmi dəryada tufana düşüb qəzaya uğrayır. Ancaq tacir bir taxta üstündə üzüb xilas ola bilir. Bağbanla, oğrularla ünsiyyətində də təhlükədən qurtulur. Hətta sərraf onu oğurluqda ittiham edib böhtan atarkən həqiqət üzə çıxır. Tacir azad edilir. Nəhayət, o, saraya yol tapır. Orada nüfuz qazanıb hörmət-izzət sahibinə çevrilir. Ancaq taleyin uğurlu yolu nəhs gedişatla əvəz olunur. Heç bir günahı olmadığı halda təqsirləndirilir. Şahın qəzəbinə düçar olur və edam edilir. Onun ömür yolu belə müəyyənləşir: əvvəl dəfələrlə təhlükələrdən, hətta real ölüm məqamında ölümdən qurtuluş tapa bilir. Günahı olduğu situasiyalarda belə cəzasız qala bilir. Amma heç bir suçu olmadığı halda xəyanətdə ittiham edilir və edama məhkum olunur. Bunun səbəbini şair bəxtsizlikdə, talesizlikdə, daha dəqiqi desək, alın yazısında, qəzavü-qədərə inamda görür. Tacirin günahsız ölümünün səbəbini sənətkar onun öz dili ilə belə izah edir:

Pəs ol biçarə etdi ahü fəryad.

Qılırdı bəxt əlindən dadü-bidad.

Açıb ağzın dedi ol padişahə,

– Eşit ərzim mənim tək bipənahə.

Mənim yox, haq bilir mütləq günahim,

Vəlakin taleü bəxti-siyahim,

Məni uğratdı, çox dərdü bəlayə,

Bəla verdi məni axır fənayə.

Şairin şəxsi qənaəti də bu ideya ilə həmahəngdir:

Fədai, hər kimə bəxt olmadı yar,

Nə hasil çox tərəddüd, sə'yü büsyar.

Nağıldan çıxan nəticəyə görə insanın taleyi, başına gələcək hadisələr əvvəlcədən kodlaşmışdır. Onun həyat yolunu müşayiət edən yaxşı və pis nə varsa, alın yazısına, qədərin qismətinə tabedir. Ümumiyyətlə, «Yazıya pozu yoxdur», təqdirə, alın yazısına inam fəlsəfəsi «Bəxtiyarnamə»dəki müxtəlif nağıllarda bu və ya digər dərəcədə özünü büruzə verir. Sonuncu nağıl – *«Padşah sərgüzəşti»* isə bütünlüklə həmin motiv üzərində qurulmuşdur. Övladı olmayan Çinü Maçin padşahının uzun nəzir-niyazdan, çətinlikdən sonra oğlan uşağı dünyaya gəlir. Amma münəccim onun gələcək taleyinə baxıb xəbər verir ki, uşaq yeddi yaşına çatdıqda atası onun vurduğu yaradan öləcək. Padşah xətadan qaçmaq məqsədilə körpəni uzaq biyabanda bir quyuya saldırır. Təyin olunmuş bir dayə onun yanında qalıb uşağa qulluq göstərir. Lakin bütün bu tədbirlər nəticə vermir. Uşaq təsadüfən quyudan xilas olur. Dayəsini aslan yeyir. Bir dəvəçinin

himayəsində yaşayan oğlan yeddi yaşına yetişdikdə atası – sultan ora gəlib çıxır. Oğlan atası olduğunu bilmədən düşmən hesab edib onu yaralayır. Padşah aldığı yaradan ölür. Nağıldan çıxan əsas qayə budur ki, olacağa çarə yoxdur. Təqdirin qismətini dəyişdirmək mümkün deyil. Bu insan iradəsindən kənar bir tale payıdır. Çinü Maçin padşahı nə qədər cəhd göstərib qəzanın qismətini dəyişmək istəsə də, buna müyəssər ola bilmədi. Nağılda müəllif deyilən ideyanı qabarıq şəkildə ifadə edir:

Yəqin bil, yox imiş təqdirə çarə,

Necə hökm etsə, kimsə kirdigarə?

Mənimçün yoxsa gər təqdiri-Allah,

Məni öldürə bilməz bigünah şah

…Fədai, kimsəyə neyləyə bədxah

Çü rədd olmaz imiş təqdiri-Allah.

Poemada zülm, ədalət və səbr fəlsəfəsi

«Bəxtiyarnamə»də insan bir fərd olmaqdan ziyadə sosial bir varlıq kimi dərk edilir. Fərd və cəmiyyət, sosial mühit məsələlərinə toxunulur. Xüsusilə də zülm və ədalət, bəşəri varlığa humanist və qeyri-humanist, qəddar və qayğıkeş münasibət problemi ciddi, vacib ictimai bir məsələ kimi diqqət mərkəzində saxlanılır. Əsərdə yaradılan çoxsaylı şah obrazlarının əməl və rəftarında həmin problem özünün maraqlı bədii təcəssümünü tapır. Bu şahlardan bir qismi ədalətli, insanpərvər, digər qismi isə zalım, qəddardırlar. Poema müəllifi ibrətamiz süjetlər, didaktik nəticələr əsasında sübut etməyə çalışır ki, zülm yerdə qalmaz. Zalım da, insaflı da, haqlı da, haqsız da, xubdin də, xeyirxah da axırda öz əməlinin bəhrəsini görəcək. Həyat yaxşıları layiqli qismətlə mükafatlandırdığı kimi, pisləri, nankor və bəhdxahları da əməlinə müvafiq cəza ilə cəzalandırır. Bu mənada məsnəvidəki 3-cü nağıl – *«Sabir sərgüzəşti»* maraqlı, tipik məzmun və ideyaya malikdir.

Sərgüzəştin ideya-məzmun axarında inikasını tapan əsas məsələ hökmdar və xalq, şah və rəiyyət problemidir. Bu mühüm ictimai məsələdən əlavə nağılda səbr və onun əhəmiyyəti, təqdirə inam fəlsəfəsi, hər kəs öz əməlinin cəzasını çəkər, hər şey Allahın əlindədir – kimi sosial-mənəvi düşüncə tərzi, bəşəri inanc şüarları da öz ideya-bədii təcəssümünü tapır.

Sərgüzəştdə hadisələr realist planda verilir. Fantastik ünsürlərə, qeyri-mümkün nağıl elementlərinə meyl edilmir. Hadisələrin həyati məcrada axarına daha çox diqqət yetirilir. Bu məziyyət, ümumiyyətlə, «Bəxtiyarnamə»nin bütün nağıllarında bir metod, üslubi sistem kimi özünü büruzə verir. Başqa sözlə, əgər buradakı nağılları təsnif etsək, əsasən, realist nağıllar silsiləsinə daxil etməliyik.

Haqqında danışdığımız nağılın qəhrəmanı Sabir «mərdi-xirədmənd», səbr, şükr və ibadət əhli, təmiz niyyətli, xeyirxah bir kənd adamıdır. Zəhmətlə dolanan bu insanın az-çox mal-qarası, münasib məişət və güzəranı da var. Əslində Sabir nağılda bir fərd kimi təsvir edilsə də, bütövlükdə rəiyyəti, ictimai toplumu təmsil edir. Daha dəqiqi, miniatürdə onun başına gələn faciələr ümumcəmiyyət miqyaslı faciələrdir. Kütləvi haqsızlıq və bəlalardır. Buradakı hər iki hökmdar obrazının Sabirə münasibəti, onunla rəftarı həmin hökmdarların idarə etdikləri sosial topluma münasibət və rəftarlarının göstəricisidir.

Əvvəlcə yaşadığı ölkədə Sabir sultanın kənd əhlinə tutduğu haqsız divana görə onu lənətləyir, ona nifrin, söyüş, qarğış yağdırır. Ancaq bu cəsarətinə, haqlı əməlinə görə məmləkətdən qovulur. Çarəsi ancaq səbr etməyə, dözüm göstərməyə qalır. O, özü də yerinə yetirilməli vacib əməl kimi buna inanır. Başqalarına da bunu təlqin edir:

Dedi Sabir ki, ey pakizə övrət!

Eşitmişəm, atam qılmış vəsiyyət.

Ki, ta kim hər kəs uğrasa bəlayə

Riza vermək gərək labüd qəzayə.

Ki səbr ilə olur hər müşkül asan

Ki təcil eyləməkdir fe'li şeytan,

Edəlüm biz dəxi səbrü təhəmmül

Xuda raziqdir, ona qıl sən təvəkkül.

Tələsməyi şeytan işi sayıb səbr, dözüm göstərən qəhrəman başına gələn bütün qəzavü qədəri təqdirin işi hesab edir və *«Qəzara, çünki yox təqdirə təbdil»* – inamı ilə yaşayır.

Birinci məmləkətdən qovulduqdan sonra ikincisinə gələn Sabir burada da eyni haqsızlıq, özbaşınalıq, qanunsuzluqlarla üzləşir. Burada da hökmdar – ictimai-inzibati rəhbər, ixtiyar sahibi, azğın, despot, rəhmsiz, qəddardır. Yeni ölkədə Sabirin iki oğlunu oğrular əlindən alır. Zövcəsini başqası götürüb evinə aparır. Özünü sultanın adamları zorla sultanın inşa etdirdiyi tikintiyə gətirib haqsız, muzdsuz işləməyə məcbur edirlər. Ancaq:

Bəlayə səbr qıl, şükr et Xudayə,

Səni bişək yetirər müddəayə. –

düşüncəsi ilə yaşayan qəhrəman Haqqın kəramətinə, sitəm mənzilinin dağılacağına, sitəmkarın öz cəzasını alacağına batini etiqad bəsləyir. Onun rəyincə hər şey Allahın əmr və istəyinə tabedir. O istəsə, quyudakı ixtiyarsız kəsi çıxarıb taxt-tac sahibi edər, sultanı isə taxtdan endirib quyuya salar:

Dedi Sabir: ona ki qılma əfqan

Həqqə şükr eyləyib səbr eylə pişə.

Ki, bidadü sitəm qalmaz həmişə.

Görərsən bir gün, ey yari-yeganə,

Əsər yox zülmü zalımdan nişanə.

Bəsa hökmü, bəsa zalim, sitəmkar,

Ki, zülmündən olur mənzilləri nar.

Bəsa kimsə ola çah ona zindan,

Çıxıb çahdan ola mənzili sultan.

Təsadüfən Sabirin bu sözlərini eşidən sultan qəzəblənib onu gizlin bir yerdə quyuya saldırır və məsxərə ilə bildirir ki, qoy çərxi-dövran səni quyudan çıxarıb sultan etsin. Deməli, sultan Allahın qüdrətinə, qüvvətinə inamdan uzaq və etiqadsızdır. Bu cür nadanlıq, cəhalət onu rəhmsizə, zalıma çevirmişdir. Poemada irəli sürülən ideya xətlərindən biri də budur.

Nağılda biz Sabirin həyatının iki mərhələsini görürük: tənəzzül (ilk dəfə öz kəndində zülmə məruz qaldığı andan quyudan çıxan vaxta qədər) və tərəqqi (quyudan çıxarılıb şah seçildikdən sonrakı həyatı) mərhələsi. Nağılın süjeti bilərəkdən bu ahəngə tabe tutulmuşdur. Ümumiyyətlə, poemada istər başqa nağıllarda, istərsə də burada əsas ideya xətləri əvvəldən hazır olduğundan,

təşviq olunacaq, irəli sürüləcək fikir çalarları bəlli olduğundan hadisələrin axarı «ideyadan süjetə» prinsipi əsasında qurulmuş, məqsədli situasiyalar yaradılmışdır.

«Sabirin sərgüzəşti»ndə hər iki hökmdar bir zalım kimi öz zülmünün cəzasını çəkməli olur. Sabirə – əslində bütöv cəmiyyətə qarşı etdikləri pisliyin eyni, adekvat cavabı ilə üzləşirlər. Sabirin bütün var-yoxunu əlindən alıb qovan əvvəlki şahın bütün var-yoxu Sabirin (o, şah olandan sonra) əmri ilə əlindən alınır, özü isə səfil halında qovulur. Sabiri quyuya saldıran ikinci ölkənin sultanı isə üsyan nəticəsində taxtdan salınır və quyuya salınır. Rəiyyəti zülm meydanına çevirənlərin aqibəti bununla yekunlaşır. Xeyir də (Sabirin timsalında), şər də (hər iki hökmdarın timsalında) öz bənzərinə tuş gəlir və hər şey Xaliqin hökmünə bağlanır:

Nə qılsan çəkdirər Allah cəzasın

Qiyamət gününə qoymaz qisasın.

Bir qəzəbə abad bir kəndi bərbad edənlərin (1-ci ölkənin şahı), bütün tərəqqi və tənəzzüllərin Tanrının qüdrət və istəyinə bağlı olduğunu məsxərəyə qoyanların (2-ci ölkənin şahı) aqibəti belədir! «Sabirin sərgüzəşti»ndə müəllif bu intonasiyanı xüsusilə vurğulamağa cəhd göstərir. Nağıldakı mühüm qayələrdən biri kimi özünü izhar etdirən səbr fəlsəfəsi sonrakı nağılda – *«Behzad sərgüzəşti»*ndə daha qabarıq və aparıcı motivə çevrilir. Səbrsizlik, tələskənlik, vaxtından əvvəl məqsədə çatmaq marağı gözəl, igid, qoçaq bir şahzadə, Şirvan şahının oğlu Behzadın faciəli ölümünə səbəb olur. Sənətkar oxucuya demək istəyir ki, tədbirsiz, səbirsiz hərəkət həmişə kədərli, uğursuz nəticə doğurur.

Ədəbiyyat

1.Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1956

2.Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, 1998

3.Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, III c., Bakı, 2009

4.Azadə R. Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər). Bakı, 1975

5.Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, 2018

6.Əhmədov E. Fədai və onun «Bəxtiyarnamə»si. ADU-nun elmi əsərləri (dil və ədəb. ser.), 1971, №5

7.Fədai. Bəxtiyarnamə (tərtib edəni: Məmmədli Q.). Bakı, 1957; 2004

8.Həvilqızı Kəminə. 1.Şərq ədəbiyyatında «Bəxtiyarnamə»lər və Dəqiqinin «Bəxtiyarnamə» əsəri; 2.XII-XIII əsrlər farsdilli bədii ədəbiyyatda «Bəxtiyarnamə» mövzusu. AMEA-nın Z.Bünyadov ad. Şərqşünaslıq İnst.-nun elmi araşdırmaları, VI buraxılış, 2003, №1-2

9.Qafarlı S. «Bəxtiyarnamə» dastanı. «Azərbaycan» jur., 1960, №8

10.Səfərli Ə. Fədai və şifahi xalq ədəbiyyatı. ADU-nun elmi əsərl. (dil və ədəb. ser.), 1975, №1

11.Səfərli Ə. XVII-XVIII əsrlər Azərbaycan epik şeiri. Bakı, 1982

12.Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı, 2008

CHINESE GRAVE PRAYING

Angel Callista [1], Christian Kevin Wang [2], Vania Elshadania[3]

[1]Student of Widya Dharma Pontianak

[21]Student of Widya Dharma Pontianak

[31]Student of Widya Dharma Pontianak

Abstract

The Chinese community is one of the largest in the world, with a significant presence across Asian countries. It is estimated that around 60 million Chinese people live overseas, accounting for 4.3% of the population in mainland China. Due to migration, many have settled permanently in various countries, earning them the title of "Citizen of the World" for their widespread presence. Despite living outside of China, these people continue to preserve and practice their cultural traditions—carrying them across generations and borders of the world. One such tradition is "*Sembahyang Kubur*" or grave praying. It is a unique ancestral worship practice that remains a constant part of Chinese heritage. This study aims to introduce the grave praying culture to a wider audience. We intend to explain how it works every year and how it is done twice a year, or even once a year depending on the family of the deceased. In this research, a qualitative approach was used, relying on interviews with practitioners to broaden the research and insight. It is indicated that *Sembahyang Kubur* retains its core elements, such as cleaning graves, making offerings, and performing prayers. This varies based on family customs and beliefs. Interviews reveal that this tradition is done to respect the deceased and it is believed that praying to the deceased will bring prosperity and blessing for the rest of the year to the family. In conclusion, *Sembahyang Kubur* is an identical tradition to the Chinese community to preserve the memory of the deceased.

Keywords: Chinese community, traditions, grave praying, *Sembahyang Kubur*

T.C.
ANKARA YILDIRIM BEYAZIT ÜNİVERSİTESİ REKTÖRLÜĞÜ
Mimarlık ve Güzel Sanatlar Fakültesi Dekanlığı
Görsel İletişim Tasarımı Bölümü Başkanlığı

2025 AİLE YILI

Sayı : E-79885059-821.05-360258 07.04.2025
Konu : Düzenleme Kurulu Akademisyen Temsilciliği

İLGİLİ MAKAMA

İlgi : Arceng Akademi'nin 07.04.2025 tarihli ve sayılı yazısı.

İlgi yazıya istinaden, Bölümümüz öğretim üyesi kadrosunda görev yapmakta olan Doç. Seçil KARTOPU'nun, Yükseköğretim Genel Kurulunun 15.06.2023 tarihli ve 10 sayılı oturumunda alınan 2023.10.183 sayılı kararı gereğince Doçentlik Başvuru Şartlarında bulunan ve doçent olacak adaylardan istenen *"Diğer uluslararası/ulusal bilimsel toplantının düzenleme komitesinde resmi olarak görevlendirilmiş üniversite akademisyen temsilcisi bulunması zorunludur."* maddesi gereğince 2025 yılında ilgili yazıda adı geçen kurumda akademisyen temsilcisi olarak görev alması Bölüm Başkanlığımızca uygun görülmüştür.

Bilgilerini ve gereğini arz/rica ederim.

Dr. Öğr. Üyesi GÜVEN MERAL
Bölüm Başkanı

- 43312285 - 43312285 - 43312285 - 43312285 - 4

ARCENG AKADEMİ

Sayı : T-100-110 15.05.2025
Konu : Akademik Teşvik Uygunluk Belgesi

İLGİLİ MAKAMA

Arceng Akademi tarafından 25-27 Nisan 2025 tarihleri arasında Sinop'da düzenlenen III. International Social Sciences Congress'de sunulan bildiriler çift kör hakem tarafından değerlendirilmiş olup gerek bilim kurulu gerekse de düzenleme kurulu olarak uluslararası niteliktedir.Çalışmaların % 67,80'i yurtdışından katılan akademisyen ve araştırmacılar tarafından sunulmuştur. Kongremiz akademik teşviğe uygundur. Kongre katılımcı ülke bilgileri ve katılımcı sayıları aşağıdaki gibidir.

Toplam bildiri sayısı: 59
Türkiyeden sunulan bildiri sayısı: 19
Türkiye dışından sunulan bildiri sayısı: 40
Katılımcı ülke sayısı: 6 ülke
Kongreye katılan ülkeler ve bildiri sayıları: Azerbaycan (35 bildiri), Moldova(1 bildiri), Romanya (1 bildiri), Pakistan (1 bildiri), Endonezya(1 bildiri), Özbekistan(1 bildiri),

Gereğini arz ederim.

Prof. Dr. ELMAN GULIYEV

Düzenleme Kurulu Başkanı

Adres: Tecde Mah. Damlacık Sk. Polatlar Office Sitesi A Blok
No: 12/2 Daire No: 13 Yeşilyurt/MALATYA

Telefon No: 0 850 474 30 06
Eposta: info@arcengkongre.com

15.05.2025
ISBN: 978-625-97514-7-4
ARCENG PUBLICATIONS – 2025©